

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Erməni sakinlərin hüquqları təmin ediləcək

## Ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində...



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 28 sentyabr 2023-cü il, cümə axşamı / № 176 (6520). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi




Bax səh. 2




## Mehriban Əliyeva: Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib. Paylaşımda deyilir: "Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!".

# Reinteqrasiya istiqamətində intensiv dialoq aparılır

Bax səh. 2

## Vətən müharibəsinin 3-cü günü



• Səhər saatlarında cəbhənin Füzuli-Cəbrayıl istiqamətində yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib. Saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha dörd tankı vurulub. Düşmənin Xocavənd rayonu ərazisində yerləşdirdiyi 3-cü "Martuni" motoatıcı alayı darmadağın edilib.

• Almaniya Kansleri Angela Merkel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlətimizin başçısı bildirib ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

• Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında Vətən müharibəsi ilə bağlı sualları cavablandırıb.

• Baş Prokurorluq düşmənin dinc əhalini atəşə tutması nəticəsində 12 mülki şəxsin həlak olması, 35 nəfərin xəsarət alması ilə bağlı məlumat yayıb.

## İcma: Azərbaycanlılara qarşı ayrı-seçkiliyə yol verilib

"BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türk Ermənistan və Azərbaycan ilə bağlı verdiyi 2023-cü il 26 sentyabr tarixli bəyanatında Azərbaycana və azərbaycanlılara qarşı qərəzliliyə və ayrı-seçkiliyə yol verib".

AZƏRTAC xəbər verir ki, bu barədə İcmanın açıqlamasında bildirilib. Açıqlamada, həmçinin qeyd olunub: "Ali komissara çox yaxşı məlumdur ki, Ermənistan öz ərazisindən və işğal etdiyi Azərbaycan ərazilərindən bir milyona yaxın azərbaycanlını qovaraq, onların hüquq və azadlıqlarını kobud şəkildə pozub. Ermənistan hökuməti bu ölkənin ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaq hüququnun reallaşmasına imkan vermir. Ali komissar nədənsə bir dəfə də olsun bu məsələ barədə danışmayıb və Qərbi Azərbaycan İcmasının bu barədə müraciətini cavabsız qoyub.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşır və sülhə, birgəyaşayışa, barışığa və reinteqrasiyaya əsaslanan gündəliyə sahibdir.

Belə olan təqdirdə, ali komissarın beynəlxalq hüquqa hörmətsizlik edən, reinteqrasiyanı rədd edən və separatçı yanaşmaya malik qüvvələri dəstəkləməsi və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququnu görməzdən gəlməsi azərbaycanlılara qarşı etnik və dini zəmində ayrı-seçkilikdir. BMT-nin insan hüquqları üzrə ali komissarının bu ayrı-seçkiliyə yol verməsi siyasi baxımdan yanlış olmaqla bərabər, bütövlükdə insan hüquqları sahəsində beynəlxalq sistemi kökündən sarsıdır.

Biz ali komissar Türkü daşıdığı ali vəzifənin mandatına uyğun hərəkət etməyə, rəhbərlik etdiyi təsisatın bəzi dairələrin əlində ucuz siyasi alətə çevrilməsinə imkan verməməyə, dini və etnik zəmində qərəz və ayrı-seçkiliyə son verməyə, Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaq hüququna dəstək verməyə və hüquqlarımızın müdafiəsi xahişi ilə 2023-cü il 10 avqust tarixində göndərdiyimiz müraciətə cavab verməyə çağırırıq".



Bax səh. 4

## YAP-ın nümayəndələri Zəfər parkında olublar

## Dünya birliyi yeni reallıqları qəbul edir

Bax səh. 5

## Türk dünyasına açılan qapı - Naxçıvan

Bax səh. 3

## İsveçin İslam "dərdi"

Bax səh. 7

## İki terrorçu Ruben

Bax səh. 7



## Rəsmi Paris Zəngəzurda konsulluq açmaq istəyir

# Fransanın "məkri"

Bax səh. 6




## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəfər parkında olublar

Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım parkın girişində xatirə daşının önünə gül dəstələri qoydular.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar

## Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi

ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

8 Noyabr prospektində inşa olunan Zəfər parkı doqquz hektardan çox ərazini əhatə edəcək. Əraziyə girişdə 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edəcək. Giriş portalındakı tağın hündürlüyü 44, eni isə 22 metr olacaq. Tağın üzərində Vətən müharibəsi qəhrəmanlarının adları həkk ediləcək. Tağın üst hissəsindəki ağac elementi böyüyən Azərbaycan, pöhrələnmə, firavanlıq, yeni həyata və Qələbəyə aparan simvolik yol təsəvvürü yaradacaq.



Zəfər Muzeyinin əsas girişində yaradılacaq "Dəmir yumruq" simvolunun üzərində Qələbənin tarixi qeyd ediləcək. "Dəmir yumruq" Zəfərin əsasında dayanan Lider, Xalq, Dövlət və Ordu birliyinin rəmzi olacaq. Muzeyin divarında Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş əsgər və zabitlərimizin adları həkk ediləcək.

Parka doğru keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə iki güclü əlaməti - Zəfər Gününü və sonsuzluğun rəmzi kimi sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.



Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası, parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri və oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq. Azadlıq Bayrağı Meydanına gedən yol Vətən müharibəsinin rəmzi kimi 44 bürünc döşəmədən ibarət olacaq.



## Erməni sakinlərin hüquqları təmin ediləcək

### Ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Qarabağ bölgəsində həyata keçirilmiş antiterror tədbirləri nəticəsində yaranmış hazırkı vəziyyət barədə fikir mübadiləsi aparılıb. Yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə olunduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib ki, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələri və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsi də toplanmış silah və hərbi texnikaya baxıblar.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edildiyini deyən Prezident İlham Əliyev onların Azərbaycan ərazisindən çıxarılması prosesinin həyata keçirildiyini bildirib. Azərbaycan Prezidenti qeyd edib ki, antiterror tədbirləri zamanı mülki əhaliyə ziyan dəyməyib, hədəf ancaq qanunsuz erməni silahlı birləşmələri və hərbi obyektlər olub.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarına toxunan Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, onların da hüquqları ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin ediləcək.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın nümayəndələri ilə Qarabağın erməni sakinlərinin təmsilçiləri arasında reinteqrasiya istiqamətində dialoq aparılır.

Ərazidə infrastrukturun bərpası ilə bağlı işlərin aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın erməni sakinlərə humanitar yardımlar göndərdiyini bildirib, yardımların göstərilməsi ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə də əməkdaşlığın həyata keçirildiyini deyib.

Dövlətimizin başçısı qeyd edib ki, rəsmi Bakı ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazırdır.

Söhbət zamanı bölgədə sabitliyin təmin edilməsi və yerli ermənilərlə dialoqun vacibliyi vurğulanıb.

## İşğaldan azad edilmiş ərazilərimizdə

### 500 meqavata yaxın günəş və külək enerjisinin istehsalı ilə bağlı 2 layihə icra olunur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) icraçı direktoru xanım Maimuna Mohd Şərifi qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun keçirilməsinin müsbət addım olduğunu deyib, ötən il Ağdam şəhərində birinci forumun uğurla təşkil edildiyini vurğulayıb. Azərbaycan Prezidenti Zəngilanda keçiriləcək builki forumun gündəliyinin çox zəngin olduğunu bildirib, bu tədbir çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin arxitektura və şəhərsalma üzrə nazirlərinin toplantısının baş tutacağını qeyd edib.

Prezident İlham Əliyev Dünya Məskunlaşma Gününün də Azərbaycanda qeyd ediləcəyinin müsbət addım olduğunu deyib.

Maimuna Mohd Şərif ölkəmizin təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyi və verdiyi maliyyə yardımlarını müsbət addım kimi qiymətləndirdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Təşkilatın fəaliyyətinin Azərbaycan dövləti tərəfindən bundan sonra da dəstəklənəcəyini qeyd edib.

UN-HABITAT tərəfindən "ağıllı şəhər" konsepsiyasının müxtəlif aspektləri üzrə görülən işlər barədə məlumat verən qonaq ölkəmizin Dünya Məskunlaşma Günü ilə bağlı keçiriləcək tədbirə ev sahibliyi etməsinə görə minnətdarlığını bildirib. O, Zəngilanda keçiriləcək İkinci Azərbaycan Milli Şəhərsalma Forumunun əhəmiyyətinə toxundu, bu tədbirin urbanizasiya ilə bağlı dünyada gedən proseslərin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib. Bu yaxınlarda Nyu-Yorkda Dayanıqlı İnkişaf Məqsədləri sammitində iştirakına toxunan Maimuna Mohd Şərif həmin tədbirdə iqlim dəyişikliyi və urbanizasiya məsələləri ilə bağlı geniş fikir mübadiləsinin aparıldığını və bu mövzuların Azərbaycanda həyata keçirilən işlərlə də sıx bağlı olduğunu vurğulayıb.

İqlim dəyişikliyi və urbanizasiyanın Azərbaycan üçün çox mühüm məsələlər olduğunu bildirən dövlətimizin başçısı BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunun ölkəmizə keçənilki səfərindən ötən müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı yenidənqurma işlərinin həyata keçirildiyini bildirib. Keçmiş məcburi köçkünlərin artıq 2 şəhər və 3 kəndə yerləşdirildiyini və bu prosesin davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev Maimuna Mohd Şərifin ölkəmizə səfəri zamanı bu sahədə gedən işlərlə yaxından tanış olacağına ümidvarlığını ifadə edib.



## Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib

İqlim dəyişikliyi məsələsinə toxunan Azərbaycan Prezidenti bərpaolunan enerji sahəsində ölkəmizdə görülən işlərin də bu məsələyə töhfə verdiyini vurğulayıb, işğaldan azad edilmiş ərazilərimizdə 500 meqavata yaxın günəş və külək enerjisinin istehsalı ilə bağlı 2 layihənin icra olunduğunu bildirib.

# Reinteqrasiya istiqamətində intensiv dialoq aparılır

## ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib

Azərbaycanın Qarabağ bölgəsində separatçı qüvvələrin davamlı təxribatlarının qarşısını almaq üçün sentyabrın 19-da başladığı və cəmi bir gün ərzində uğurla tamamladığı lokal xarakterli antiterror tədbirlərinin nəticəsi olaraq yaranan yeni reallıqlar artıq bütün dünyada qəbul olunur. O cümlədən yeni reallıqlar fonunda regionda müşahidə edilən proseslər beynəlxalq səviyyədə yaxından izlənilir. Sentyabrın 26-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı, erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb.

### Hərbi texnika müsadirə edilir

Telefon danışığında hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyi və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyi ABŞ tərəfinə bildirilib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Müsadirə edilən silah-sursatın siyahısı kifayət qədər böyükdür. Müdafiə Nazirliyinin dünənə olan məlumatına əsasən artıq 1105 atıcı silah və qumbaraatanlar təhvil alınıb. Müsadirə edilən hərbi texnika siyahısında həmçinin artilleriya silahları, HHM vasitələri, döyüş sursatları, təchizat və ləvazimatlar, optik və digər cihazlar, zirehli texnika, avtomobil texnikası və s. var.

Ölkəmiz müsadirə edilən texnikalar barədə məlumatları mütəmadi qaydada yeniləyir və bu barədə beynəlxalq təşkilatlara da məlumatlar çatdırılır. Telefon danışığında Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələrinin və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsinin toplanmış silah və hərbi texnikaya baxış keçirdiyi qeyd olunub.

Xatırladaq ki, sentyabrın 24-də ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi attaşelərinin Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Şuşa şəhərinə ilk səfəri təşkil edilib. Hərbi attaşelər Şuşa rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus tərk edilmiş dayaq məntəqəsinə baxış keçiriblər.





Müdafiə Nazirliyinin yüksək rütbəli zabitləri tərəfindən nümayəndə heyətinə antiterror tədbirlərindən sonra müsadirə olunmuş döyüş texnikası, hərbi avadanlıqlar və silah-sursat haqqında məlumat verilib və videoçarx nümayiş etdirilib.

### Humanitar yardımlar göndərilir

Dövlətimizin başçısı Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

Azərbaycan nümayəndələri ilə erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparıldığı, erməni sakinlərə Azərbaycan tərəfindən humanitar yardımlar göndərildiyi, ərazidə infrastrukturun bərpa edildiyi dövlət başçısı tərəfindən qeyd olunub.

Elə bu günlərdə Xankəndi şəhərinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib. Qeyd edək ki, hələ 2021-ci ildə "Azərenerji" tərəfindən tikilən və Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Şuşa" yarımstansiyasında Xankəndi üçün ehtiyat yuvalar quraşdırılmışdı. 2023-cü il sentyabrın 19-dan etibarən "Azərenerji" tərəfindən "Şuşa" yarımstansiyası yaxınlığında əlavə 110 kV-luq yüksək gərginlikli dayaqların quraşdırılmasına və Xankəndi xətti ilə əlaqələndirilməsi işinə başlanılıb. Aparılan işlər nəticəsində artıq proses yekunlaşıb. Paralel olaraq "Azərenerji" və "Azərişıq" əməkdaşları ötürücü və paylayıcı şəbəkəni, mühafizə sistemlərini təftiş etdikdən sonra xəttə gərginlik verilib.



### Etimad quruculuğu...

Lokal xarakterli antiterror tədbirlərinin nəticəsi olaraq əldə olunan razılaşmalar əsasında Azərbaycan nümayəndələri ilə erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparılır. İlk görüş sentyabrın 21-də Yevlaxda baş tutub. Sentyabrın 25-də isə Xocalı şəhərində Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşü keçirilib. Eləcə də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin sosial-humanitar, iqtisadi və infrastruktur məsələlərin həlli üzrə rəhbərlik etdiyi işçi qrupun üzvlərinin cari fəaliyyət istiqamətlərini müəyyən etmək məqsədilə Xankəndi şəhəri də daxil olmaqla ərazidə kommunal, səhiyyə xidmətləri və digər mülki fəaliyyətlə məşğul olan müvafiq nümayəndələrlə görüşünün təşkili və birgə işçi qrupunun yaradılması barədə razılıq əldə olunub. Qarabağ iqtisadi rayonunda yaşayan ermənəsilli vətəndaş cəmiyyəti təmsilçiləri və ictimai fəalların Bakıya və ya Azərbaycanın digər şəhərlərinə səfərlərinin təşkil edilməsi təklifi də gündəlikdədir. Xocalı görüşündə bu cür təşəbbüslərin vətəndaş cəmiyyəti dialoqu platformasının yaradılması, eləcə də etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilib.

Telefon danışığında həmçinin erməni sakinlərə yardımların göstərilməsi istiqamətində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığın həyata keçirildiyi, ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə Azərbaycan tərəfinin hazır olduğu diqqətə çatdırılıb.

ABŞ dövlət katibi Antoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirib.

*M.ABDULLAYEV*

# Şəhidlərin əziz xatirəsi ehtiramla anılıb

## Dövlət və hökumət rəsmiləri Zəfər parkında olublar



**27 Sentyabr - Anım Günü ilə əlaqədar sentyabrın 27-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar.**

**Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsinin başladığı gün - 27 sentyabr Anım Günü kimi qeyd edilir. Anım Günündə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır.**



# Medianın İnkişafı Agentliyinin kollektivi Zəfər Parkını ziyarət edib

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və agentliyin kollektivi sentyabrın 27-də Bakıda inşası davam etdirilən Zəfər parkını ziyarət ediblər. MEDİA-nın mətbuat xidmətindən bildiriblər ki, 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, xatirə daşının önünə gül dəstələri düzülüb.**



# Türk dünyasına açılan qapı - Naxçıvan

## TDT Türkdilli ölkələr arasında inteqrasiyanı daha da gücləndirir

Qədim diyar Naxçıvan bu günlərdə qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın respublikamıza uğurla baş tutan növbəti rəsmi səfərinə ev sahibliyi edib. Səfər kifayət qədər məhsuldar oldu. Səfər çərçivəsində Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan təkbətək görüş keçirdilər, bir sıra mühüm obyektlərin açılış və yaxud təməlqoyma, eləcə də sənədlərin imzalanması mərasimlərinə qatıldılar, mətbuata bəyanatlarla çıxış etdilər. Təbii ki, səfərin uğulu nəticələri iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə, eləcə də Naxçıvanın sosial-iqtisadi inkişafına öz müsbət təsirini göstərəcək. Ancaq Türkiyənin dövlət başçısının Naxçıvana səfəri və burada Prezident İlham Əliyevlə apardığı aktual müzakirələr çox doğru olaraq yalnız ikitərəfli münasibətlər kontekstində deyil, daha geniş anlamda dəyərləndirilir.

### Naxçıvandan başlayan Türk əsri

XXI əsr Türk əsri adlandırılır. Məhz bu əsrdə zamanında müxtəlif imperialist güc mərkəzlərindən zərbələr almış Türk dünyasının özünəgəlmə və dirçəliş dövrünə qədəm qoyduğunu müşahidə edirik. Bu proseslərin axarında Türkiyənin dövlət başçısının respublikamıza növbəti səfərini Naxçıvana etməsi həm də rəmzi bir məna daşıyır. Bütün Azərbaycanda çox sevilən Rəcəb Tayyib Ərdoğanın özü Azərbaycana səfərinin yekunları ilə bağlı jurnalistlərə müsahibəsində qədim diyarı "Türk dünyasına açılan qapımız" kimi səciyyələndirib.

Naxşıvanın bütün Türk dünyasının qapısı kimi səciyyələndirilməsi isə heç də təsadüfi deyildir. Hazırda Türkdilli ölkələri bir araya gətirən Türk Dövlətləri Təşkilatının (TDT) yaşı elə də çox deyil. Biz fəxr edirik ki, Türkdilli dövlətlərin institusional strukturunun formalaşması təşəbbüsü Prezident İlham Əliyevdən gəlib və bu tarixi prosesin təməli qədim Azərbaycan torpağı olan Naxçıvanda qoyulub. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb. 2021-ci ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı olub və səmərəli beynəlxalq təşkilata çevrilib. Bu, təkcə ad dəyişikliyi deyil, həm də yeni baxışın və yeni inkişaf vektorunun göstəricisidir.

Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun dörd üzv ölkəsi-Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatda beş üzv və iki müşahidəçi ölkə var. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. Altı Türk dövlətindən beşi bu təşkilatın üzvüdür, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Macarıstan da müşahidəçi qismində təşkilata qoşulub və qurumun Macarıstanda da ofisi fəaliyyət göstərir. Macarıstanın bu təşkilata qoşulması, eləcə də onlarla digər ölkənin müşahidəçi statusu almaq istəyi TDT-nin çəkisinin və perspektivinin yüksək olduğunu göstərir. İndiyədək qurumun Almatı, Bişkek, Qəbələ, Bodrum, Astana, Çolpan-Ata, Bakı, İstanbul, Səmərqənd və Ankarada olmaqla Zirvə görüşləri uğurla baş tutub. Son vaxtlarda ayrı-ayrı məkanlarda baş tutan Zirvə görüşlərində yeni geosiyasi reallıqlar və meydana çıxan çağırışlar nəzərə alınmaqla imzalanan sənədlər Türkdilli ölkələr arasında müxtəlif istiqamətlərdə inteqrasiyanın genişlənməsinə yeni imkanlar açır.

Dünyada müxtəlif ideyalar ətrafında yaradılan təşkilatlar coxdur. Ancaq bəllidir ki, bir sıra təşkilatların ömrü heç də uzun olmur, müəyyən müddətdən sonra səhnədən çıxır. TDT-nin isə ömrünün sonsuzluğa qədər davam edəcəyi fikrini qətiyyətlə ifadə edə bilərik. Çünki bu təşkilatın əsasında hansısa maraqlara bağlı olan ideyalar dayanmır. Türk birliyinin möhkəmlənməsini geniş coğrafiyada yaşayan xalqların hamısı arzulayır və yaxşı haldır ki, dövlətlər də buna siyasi dəstək verirlər. Bu istəyin və dəstəyin əsasında isə tarixdən gələn bağlılıq, qan yaddaşı, ortaq ənənələr və dəyərlər dayanır.

### Əməkdaşlığın prioritet istiqamətləri

Bu gün Türkdilli ölkələr arasında tarixi bağlılıq əsasında genişlənən inteqrasiyanın dərinləşməsi həm də güclü iqtisadi potensial və ortaq maraqlarla şərtlənir. Türkdilli ölkələr təbii ehtiyatlarla, o cümlədən də enerji resursları ilə zəngindir. Türkiyə 761.4, Qazaxıstan 181.7, Özbəkistan 57.9, Azərbaycan 48, Türkmənistan 48 və Qırğızıstan 8.5 milyard dollar nominal ÜDM-ə malikdir. 2022-ci ildə Türkiyə iqtisadiyyatı 5,6, Azərbaycan və Macarıstan iqtisadiyyatı 4,6, Türkmənistan iqtisadiyyatı 6,2, Özbəkistan iqtisadiyyatı 5,7, Qırğızıstan iqtisadiyyatı 7, Qazaxıstan iqtisadiyyatı isə 3,2 faiz böyüyüb. Dövlət büdcəsinin gəlirlərinin artımı baxımından ən yaxşı göstərici 100,6 faizlə Türkiyədədir. Türkiyənin dövlət büdcəsinin gəlirləri 147 122,2 milyon ABŞ dolları olub. Xarici ticarətdə ən yüksək saldoya Qazaxıstan (ticarət balansı 34 350,4 milyon ABŞ dolları) və Azərbaycan (ticarət balansı 27 132,3 milyon ABŞ dolları) malikdir. 2022-ci il ərzində Türk Dövlətləri Təşkilatına daxil olan bütün ölkələrdə əsas kapitala yönələn vəsaitlərdə artım müşahidə edilib.

Mütəxəssislərin qənaətinə görə, təşkilat daxilində iqtisadi və ticari əməkdaşlığı daha sistemli şəkildə əlaqələndirmək mümkündür. 1.4 tirlyon nominal ÜDM-ə malik olan Türkdilli ölkələr yeni regional əməkdaşlıq modeli yaradırlar. Deyə bilərik ki, regionun yeni iqtisadi xəritəsi formalaşmaqdadır.

Son Ankara Sammitində iqtisadi inteqrasiyanın genişləndirilməsi istiqamətində mühüm addım atıldı-Türk İnvestisiya Fondunun yaradılması haqqında Saziş imzalandı. Fondun Türk dövlətlərinin qurduğu əsas ortaq maliyyə qurumuna çevrilməsi və fondun vəsaitlərinin birgə layihələrin həyata keçirilməsinə yönəldilməsi nəzərdə tutulur. Fond Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin iqtisadi potensialının inkişafına, onlar arasında ticari-iqtisadi əməkdaşlığın gücləndirilməsinə, birgə layihələrin həyata keçirilməsinə yönəldiləcək. Nizamnamə kapitalı 500 milyon dollardır və hər birinin nominal dəyəri 50 000 ABŞ dolları olan 10 000 səhmə bölünüb. Hər bir TDT üzvü üçün 2 min səhm, hər bir ölkə üçün ödənilən səhmin ümumi nominal dəyəri 70 milyon ABŞ dolları, hər bir ölkə üçün cəlb olunan səhm üzrə ümumi nominal dəyər isə 30 milyon dollar təşkil edir. Xatırladaq ki, Türk İnvestisiya Fondunun yaradılması təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyevə məxsusdur. Fondda ölkəmizin payı 100 milyon dollar təşkil edir.

TDT-da birləşən ölkələr sadələşdirilmiş gömrük dəhlizinin yaradılmasına güclü siyasi iradə göstərirlər. Yeni geosiyasi reallıqlar fonunda TDT-də birləşən dövlətlər arasında şərtləri uzlaşdırılmış sadələşdirilmiş gömrük dəhlizinin yaradılması qarşılıqlı icarət dövriyyəsinin, eləcə də daşımaların artması üçün mühüm əhəmiyyət daşıyır. Dəhliz tərəflər arasında daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsi etmək, onların gömrük prosedurlarını mümkün qədər asanlaşdırmaq məqsədi daşıyan, könüllülük əsasında və bütün nəqliyyat növlərində istifadə edilə bilən elektron sistemi nəzərdə tutur. Cari il aprelin 5-də Milli Məclis "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə" qanun layihəsini müzakirə edərək onun qəbuluna səs verib. Xatırladaq ki, "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Saziş 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanıb.

### Siyasi, iqtisadi müttəfiqlikdən hərbi müttəfiqliyə doğru

Hazırda dünya üzrə beynəlxalq prinsiplər öz yerini getdikcə daha sürələ ikili standartlara verilir. Bu və ya digər ölkələrdə yaşanan problemlərə münasibətdə beynəlxalq təşkilatlar, güc mərkəzləri fərqli yanaşmalar ortaya qoyurlar. Azərbaycan bu mənfur təcrübəni onilliklər ərzində öz həyatında yaşayan bir ölkədir. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamız Ermənistanın təcavüzünə məruz qalmışdı-ərazilərinin 20 faizini itirmişdi. Ancaq bu təcavüz aktı ayrı-ayrı beynəlxalq təşkilatlar tərəfindən birmənalı şəkildə pislənilmirdi və və işğalçı dövlətə qarşı adekvat tədbirlər görülmürdü. Halbuki "təcəvüzkar ölkə" damğası ilə cəzalandırılan və sanksiyalara məruz qalan ölkələrin sayı da az deyil. Özünü cəzasızlıq mühitində hiss edən Ermənistan isə BMT-nin qətnamələrinin icrasını təmin etməkdən vaz keçir, hətta yeni torpaqlar ələ keçirmək üçün yeni müharibə anonsu edirdi.

Bax bu kimi situasiyalarda güc və müttəfiqliyin aktualığı bütün cəhətləri ilə aydın görünür. Bu gün Türk dünyasının müxtəlif parametrlər baxımından ən öndə gedən dövləti Türkiyədir. Qardaş ölkə, həmçinin özünün innovativ əsaslı müdafiə sənayesini intensiv şəkildə inkişaf etdirir. Təkcə cari ildə Türkiyə dünyada analoqu olmayan bir neçə yeni hərbi texnikasını təqdim etdi. Bu müdafiə potensialından bütün Türk dünyasının təhlükəsizliyinin təmin edilməsində istifadə oluna bilər. Azərbaycan və Türkiyə bu istiqamətdə ilk addımı atıblar. Xatırladaq ki, 2021-ci il 15 iyun tarixində iki ölkə arasında Şuşa Bəyannaməsi imzalanıb. Bununla da Azərbaycan və Türkiyə müttəfiqlik münasibətlərini ən yüksək səviyyədə rəsmiləşdiriblər. Şuşa Bəyannaməsi ölkələrimizin təhlükəsizliyinə və sülhə möhkəm hüquqi əsaslar yaradır. Bu təcrübə genişləndirilməli və böyük Türk coğrafiyası siyasi, iqtisadi inteqrasiyadan hərbi müttəfiqliyə doğru irəliləməlidir.





***Mübariz ABDULLAYEV***

# Orta Dəhlizin aktuallığı artır

Son illərdə geniş Avrasiya coğrafiyasında müşahidə edilən geosiyasi proseslər fonunda meydana çıxan mühüm çağırışlardan biri nəqliyyat, logistika məsələləri ilə bağlıdır. Məlum səbəblərə görə Qara dənizin Ukrayna sahillərindəki limanları, həmçinin Rusiyadan keçən marşrutlar vasitəsilə daşımaların həcmi əhəmiyyətli dərəcədə məhdudlaşıb. Sonu görünməyən müharibə ölkələri və daşıma şirkətlərini alternativ marşrutlara üz tutmaq seçimi qarşısında qoyub. Belə bir şəraitdə nəzərlər iki qardaş ölkənin - Azərbaycanın və Türkiyənin mühüm halqalar təşkil etdiyi Orta Dəhlizə yönəlib.

"Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizin əhəmiyyəti koronavirus pandemiyası və bölgəmizdə yaşanan müharibələr nəticəsində daha yaxşı dərk edilmişdir". Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 25-də respublikamıza baş tutan uğurlu rəsmi səfəri çərçivəsində mətbuata verdiyi bəyanatında ifadə edib. Qardaş ölkənin dövlət başçısı Azərbaycana rəsmi səfərdən qayıdan zaman jurnalistlərə müsahibəsində isə bəhs olunan fikirlərinin davamı kimi Zəngəzur dəhlizinin açılmasının zəruriliyindən danışıb.

**Orta Dəhliz üzərində yerləşən ölkələrin birgə səyləri**

çərsə, 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edəcək. Bu da Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Eyni qatar Cənub dəhlizi üzrə göndərilsə, Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Orta Dəhliz öz imkanları ilə, şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı ilə dünya ticarətinin ən mühüm halqalarından biri olacaq.

**Azərbaycanın müstəsna rolu**

Qlobal miqyasda Orta Dəhlizə marağın artmasında Azərbaycan müstəsna rola malikdir. Uzunmüddətli siyasi sabitlik, mükəmməl qanunvericilik bazası, təhlükəsizliyə verilən zəmanətlər, optimal qiymətlər, keçid prosedurlarının sadəliyi, məsafənin qısalığı, relyefin əsasən düzən olması və s. amillər transmilli şirkətlərin ölkəmizə marağını artıran səbəblər sırasında yer alır.

Burada ən əsas amillərdən biri isə müasir infrastrukturla bağlıdır. Respublikamızın ərazisindən bir-birinə inteqrasiya edilmiş Şərq-Qərb və Şimal-Cənub kimi iki mühüm dəhliz keçir. Son illərdə həm bütün respublika üzrə, həm də bəhs olunan dəhlizlər boyunca avtomobil yollarının yenidən qurulması istiqamətində çoxsaylı layihələr reallaşdırılıb. Hər iki dəhliz üzrə yollar ən müasir standartlar səviyyəsinə çatdırılıb. Hazırda respublikamızdan Rusiya, Gürcüstan, İran sərhədinə, necə deyərlər, şüşə kimi hamar yollar uzanır. Eyni zamanda, bu yollar üzərində yüksəksəviyyəli logistika xidmətləri təşkil olunub. Ölkəmiz Xəzərdə ən böyük donanmaya malikdir. Hazırda Azərbaycanın regionlarında da beynəlxalq səviyyəli hava limanları fəaliyyət göstərir. Daha 3 beynəlxalq səviyyəli hava limanı isə işğaldan azad olunmuş ərazilərdə yaradılır. Artıq onlardan ikisi-Füzuli və Zəngilan beynəlxalq hava limanları istifadəyə verilib, digər bir aeroportun inşası isə Laçında intensiv şəkildə davam etdirilir.

Hazırda Orta Dəhlizin funksionallığının artmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti məhz Azərbaycanın moderatorluğu ilə inşa olunaraq 2017-ci ildə istifadəyə verilib. BTQ-nin fəaliyyəti yol boyunca yerləşən ölkələr arasında əməkdaşlığın möhkəmlənməsinə müsbət təsir göstərir. İndiki mərhələdə Bakı-Tbilisi-Qars dəmir yolu ilə ildə təqribən 6-8 milyon ton yük daşınır. Layihəyə əsasən, polad magistralla növbəti illərdə 17 milyon ton və daha çox yük daşınması nəzərdə tutulur. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirlməsinə start verilib.

Güclü dövlət olan Azərbaycan həmçinin liderlik keyfiyyətləri nümayiş etdirərək Xəzərdə ən böyük ticarət limanının inşasına nail olub. Bu liman hazırda dünyada mövcud olan ən yüksək standartlar səviyyəsində inşa olunub. Yeni liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Ələtdə yaradılan bu liman Orta Dəhlizin çox mühüm seqmentlərindən birini təşkil edir. Buradan aşırılan yükləri eyni zamanda Çərq-Qərb və Şimal-Cənub marşrutlarına da istiqamətləndirmək mümkündür. Öz növbəsində ölkəmizin nəqliyyat infrastrukturunun genişləndirilməsi planları Bakı Beynəlxalq Dəniz Ticarət Limanını da əhatə edir. Bununla bağlı zəruri tədbirlərin görülməsinə start verilib. Genişləndirmə layihəsinə əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatdırılacaq. Bununla bağlı artıq bütün göstərişlər verilib və layihənin həyata keçirilməsinə vəsait ayrılıb.

**Qardaş Türkiyə Zəngəzur dəhlizinin açılmasında israrlıdır**

İndiyədək Azərbaycanla bir sıra regional və qlobal əhəmiyyətli enerji və nəqliyyat layiuhələrinin uğurla həyata keçirilməsinə nail olan qardaş Türkiyə indiki mərhələdə Orta Dəhlizin bir qolu kimi inkişaf etdirlməsi nəzərdə tutulan Zəngəzur dəhlizinin açılmasına da israrlı yanaşma ortaya qoyur. "Ermənistan Zəngəzur yolunun açılmasına razılıq verməsə, yol İran üzərindən keçəcək və İran bu məsələdə maraqlıdır". Bu fikri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfərdən qayıdan zaman jurnalistlərə müsahibəsində deyib. Zəngəzur dəhlizi ilə bağlı sualı cavablandıran Rəcəb Tayyib Ərdoğan bildirib ki, quru və dəmiryolu marşrutları ilə Naxçıvanı Azərbaycanın digər bölgələri ilə birləşdirən nəqliyyat əlaqələri münasibətləri daha da inkişaf etdirəcək və bu güclü əlaqələr sayəsində bir çox məsələlər üzrə atılan addımlar gələcəkdə öz faydalarını verəcək. O vurğulayıb: "Bu səbəbdən, hər şeydən əvvəl, bu dəhlizin açılması üçün əlimizdən gələn səyləri göstərəcəyik. Türkiyə və Azərbaycan üçün mühüm olan bu dəhlizin açılması strateji məsələdir və mütləq tamamlanmalıdır. Zəngəzur dəhlizi açıldığı vaxt Bakıdan yola düşən bir maşın və ya qatar birbaşa Qarsa gələcək. Türkiyə-Azərbaycan qardaşlığı daha da güclənəcək. Bu məsələdə İrandan müsbət siqnallar daxil olması da sevindiricidir".






## Layihəyə qlobal marağın artmasında Azərbaycanın müstəsna rolu var

Sözügedən dəhliz Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi də tanınır. Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur.

Orta Dəhlizin bir sıra önəmli üstünlüklərini sadalamaq mümkündür. İlk növbədə, onu vurğulamaq yerinə düşər ki, əlverişli coğrafi mövqe Orta Dəhliz üzərində yerləşən dövlətləri Avropa ilə Asiyanı birləşdirən əsas tranzit ölkələri kimi gündəmə gətirib. Orta Dəhlizin əsas üstünlüyü ondan ibarətdir ki, bütün iştirakçı dövlətlər bu marşrutun funksionallığının artırılmasına güclü siyasi iradə nümayiş etdirirlər. Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq getdikcə genişlənir ki, bu da daşımalar, yüklərin cəlb edilməsi, logistika ilə bağlı məsələlərin uzlaşdırılmasına geniş imkanlar yaradır. Bütün marşrut boyunca vahid tarif, "bir pəncərə" prinsipi tətbiq olunur.

Orta Dəhlizin funksionallığının artmasında yeni platformada birləşən Azərbaycan, Türkiyə və Qazaxıstan mühüm rol oynayırlar. Dəhlizə daha çox həcmlərdə yüklərin cəlb olunması, həmçinin aşırma infrastrukturunun genişləndirilməsi ilə bağlı Gürcüstanın, Mərkəzi Asiya dövlətlərinin hökumətləri ilə intensiv müzakirələr aparılır və koordinasiyalı fəaliyyət təmin olunur. Oxşar müzakirələr son vaxtlarda Azərbaycan - Türkiyə-Özbəkistan formatında da intensivləşib.

Mütəxəssislər Orta Dəhlizin Avropa və Asiya regionu üçün önəmini yüksək dəyərləndirirlər. Bildirilir ki, Çindən Avropaya gedən yük qatarı Orta Dəhlizi se-

Üçtərəfli Bəyanatda nəzərdə tutulan Zəngəzur dəhlizinin yaradılması postmüharibə mərhələsində ölkəmizin gündəliyində duran əsas məsələlərdən biridir. Bu dəhlizin yaradılması ölkəmizin milli, tarixi və gələcək maraqlarına tam cavab verir.

Zəngəzur dəhlizinin önəmini bir neçə aspektdən dəyərləndirə bilərik. İlk növbədə, onu vurğulayaq ki, Zəngəzur dəhlizi Naxçıvanla Azərbaycanın əsas hissəsini birləşdirəcək. Bununla da Naxçıvanın üç onillik ərzində davam edən blokadasına son qoyulacaq.

Zəngəzur dəhlizinin yaradılması həmçinin region dövlətlərinin maraqlarına uyğundur. Dəhliz açılandan sonra Azərbaycan ərazisindən keçməklə Rusiyadan Ermənistana dəmir yolu xəttinin açılma ehtimalı realdır. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı yaranacaq. Bundan başqa, İran ilə Ermənistan, Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Beləliklə, bütün region ölkələri yeni infrastruktur layihəsindən fayda götürəcək. Zəngəzur dəhlizinin açılması ilə yeni qlobal kommunikasiya bağlantısı formalaşacaq ki, bu da bütün Avrasiya coğrafiyası üçün çox vacibdir.

***Mübariz FEYİZLİ***

# XİN cavab verdi



"Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı atdığı bütün addımlar, o cümlədən son 24 saatlıq antiterror tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun şəkildə həyata keçirilib. Azərbaycan hər zaman həyata keçirdiyi tədbirlər çərçivəsində mülki əhalinin və mülki obyektlərin qorunmasına sadiq olub".

Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türk bölgədəki mövcud vəziyyət və etnik azlıqların hüquqlarının qorunması öhdəliyi barədə fikirlərinə dair şərhində yer alıb. Bildirilib ki, Ermənistanın 30 ilə yaxın hərbi işğalı zamanı kütləvi qətllərə məruz qalan azərbaycanlıların öz hüquqlarından məhrum olmasına baxmayaraq, Azərbaycan öz ərazisində olan bütün etnik azlıqların, o cümlədən ermənilərin hüquqlarının qorunmasına həmişə sadiq olub. Azərbaycan rəhbərliyi bunu dəfələrlə şifahi şəkildə bəyan edib: "Təəssüf ki, indiyədək heç kim bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa, o cümlədən onların təhlükəsizlik və ləyaqət şəraitində qayıtmaq hüquqlarını təmin etməyə dair çağırış etməyib. Azərbaycanın 44 günlük müharibədən, o cümlədən antiterror tədbirləri həyata keçirildikdən sonra itkin düşmüş şəxslərin yerini tapmaq üçün kömək göstərməsinə baxmayaraq, 4000-ə yaxın itkin düşmüş azərbaycanlıya qarşı eyni diqqət və həssaslığı müşahidə etmirik. Ümid edirik ki, ali komissarın qurbanların hüquqları baxımından günahkarların məsuliyyətə cəlb olunması və cəzalarını çəkmələri məsələsinin həllini tapması üçün şəffaf istintaq aparmaq çağırışları, Azərbaycanın 30 ilə yaxın müddətdə Xocalı soyqırımı, digər kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərdə təqsirli şəxsləri cəzalandırmaq istiqamətində çağırışlarına məhəl qoymayan beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə qəbul ediləcək".

A.Hacızadə, həmçinin Ermənistanın BMT nümayəndəsinin bu çağırışına əməl etməklə, bu ölkənin indiki ərazisindən kütləvi surətdə qovulmuş azərbaycanlıların hüquqlarını inkar etməyəcəyinə və onların öz evlərinə qayıtmaq hüquqlarını təmin etmək üçün dialoqa şərait yaradacağına ümid etdiyimizi də diqqətə çatdırıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkında olublar









Sentyabrın 27-də - Anım Günündə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının məsul əməkdaşları, Gənclər Birliyinin üzvləri, partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının nümayəndələri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Əvvəlcə saat 12:00-da Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra YAP nümayəndələri Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri düzüb, qəhrəman Vətən övladlarını dərin hörmət və ehtiramla anıblar.



# Heydər Əliyev ideyaları əbədiyaşardır




"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. 2023-cü il sentyabrın 27-də YAP Şirvan şəhər təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Şirvan şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.








# Prezident İlham Əliyevin bəşər tarixinə töhfəsi

## Zəngəzur dəhlizinin üfüqləri görünür

Biz 90-cı illərin əzablarından, ağrılarından keçmiş nəsilik. Uşaqlıq çağımızın tək günləri qətl, cüt günləri dəfn günlərinə təsadüf edib. Ön cəbhədə od-alov, müharibə, qan-qada, arxa cəbhədə siyasi didişmə, kreslo davası, hakimiyyət üçün xalqı güdaza verən cəbhələr, hərc-mərclik, sosial böhran, özbaşınalıq və s. Şükür ki, bunların hamısı artıq arxada qalıb. Güclü nizamlanmış orduya sahibik, ölkədə sabitlikdir, övladlarımız qorxusuz-hürküsüz şəhərdə dolaşa bilir.

Otuz il torpaqlarımız işğal altında qaldı, amma bir müstəsnalıq öz gücünü əbədi qorudu. Bu otuz ildə Qarabağ Azərbaycan üçün yalnız milli ərazinin deyil, həmçinin mənəvi heysiyyət və ləyaqətin adı oldu, şərəfli və suveren Vətən anlayışının tərkib hissəsinə çevrildi. 2020-ci ilin 44 günlük savaşında da bizə zəfəri qazandıran başlıca amil bu hissə tapınmağımız oldu. Düşmən isə öz əzəli-əbədi xislətinə sadiqliyi ilə təəccübləndirmədi. Həsəd doğurmayan keyfiyyətlərdir! İrtica, zor, şər stixiyası, xaosdan qidalanmaq, göz yaşına, qana susamaq, hər dəfə çarxı fırladıb zülmün və vəhşətin başlandığı nöqtənin tam üstündə saxlamaq! Tək 44 günlük müharibədə və ondan sonrakı zaman müddətində düşmənin sərgilədiyi fəci mənzərənin çeşidinə diqqət edək: müharibə aparılan ərazidən kilometrlərlə uzaq sivil şəhərlərimiz (Gəncə, Bərdə, Mingəçevir) raketlərlə bombalandı. Hətta kapitulyasiya aktı imzalandıqdan sonra belə ermənilər "10 Noyabr Bəyannaməsi"nə əməl etməyərək minalanmış ərazilərin xəritəsini vermədi. İşğaldan azad olunmuş ərazilərdə hələ də mina təhlükəsinin qalması, sərhəd ərazilərdə erməni terrorçularının yerləşdirilməsi, müharibədən sonra da atışmaların davam etməsi, siyasi heyətin sülh çağırışlarının cavabsız qalması düşmənin öz tarixi xislətinə sadiq qalmasının, sabit mövqeyindən çəkinməməyinin göstəricisi idi.



Ali Baş Komandan İlham Əliyevin üzərinə çox ağır missiya düşüb. Bir tərəfdən ölkənin rifahını və sabitliyini pozmaq istəyən siyasi cəbhələr, antimilli maraqlara xidmət edən ünsürlər, digər tərəfdən, yalnız erməni siyasilərinin, əsgərlərini deyil, erməni vətəndaşlarının, sivillərinin belə qana, müharibəyə susayan, Birinci Qarabağ müharibəsində və ondan sonrakı otuz il müddətində "Bakıya qədər gələcəyik!", "Axırıncı türkü də öldürəcəyik!" şüarlarını səsləndirməkdən usanmayan kor kütlə...

İlham Əliyev hər zaman sülhün tərəfində olduğunu bəyan edib. Çıxışları hər zaman, sülhə, barışığa dəvət çağırışları ilə zəngindir. Amma sülh qarşı tərəf sakitləşəndə, atəşkəsə əməl etdikdə başlayır. Ermənilərin təxribatı davam edirsə, hansı sülhdən söhbət gedə bilər? Son antiterror əməliyyatları da bunu sübut etdi. Ermənistan üçtərəfli Bəyanatın şərtlərini pozursa, yenidən təcavüzə meyllənirsə, mülki əhalini hədəf alırsa, Azərbaycanın Ermənistanı islah etməsi üçün hərbi gücdən istifadə etməsi qaçılmazdır. Doğrudur, şəhidlər veririk, anaların gözü yaşlıdır, kiçik yaşlı uşaqlar atalarının torpağa verilməsinə şahidlik edirlər. Amma başqa yol yoxdur. Milli namusun keşiyində millət özü durmalıdır! Hərbi etikası olmayan, sazişlərə əməl etməyən bir düşmənin varsa, əlbəttə, onun başına dəmir yumruq endirməkdən başqa çarə qalmır. Söhbət ərazi bütövlüyündən gedirsə güzəştə yer olmamalıdır. Hikmət Hacıyevin CNN-ə müsahibəsində bildirdiyi kimi: "Hər bir ölkə kimi Azərbaycanın da öz suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək hüququ var".

Bu gün İlham Əliyevin qətiyyəti, əzmi bütün dünya üçün örnəkdir. Hərçənd, dünya belə qətiyyətli, güclü lider obrazını, xüsusilə prinsipial, beynəlxalq dəngələri qoruyan idarəedicini o qədər də asan qəbullana, həzm edə bilmir. Amma olsun, onsuz da başqa yolları yoxdur. İlham Əliyev bu gün min cür mürəkkəb, xaotik, gizlin, məkrli siyasi oyunların çevrəsində dövlət qurur. Son hadisə ilə isə yalnız son otuz ilin yox, iki yüz illik bir dövrün yaraları bütövlənir. Parçalanan, talan olan Azərbaycan hələ ümummilli lider Heydər Əliyevin zamanında kor Edip kimi ayağa durub qalxmağa özündə qətiyyət tapmışdı. İlham Əliyev isə Azərbaycanı ona tarixən dəymiş bütün zərbələrin altından zədəsiz çıxarmağı bacardı. Gələcəyə bütöv Azərbaycan ərməğan etmək üçün.



Müdaxilə ilə bağlı maraqlı bir detala diqqət çəkmək istəyirəm. Azərbaycan Prezidenti dəfələrlə qeyd etdi ki, "Qarabağın Azərbaycanın torpağı olduğunu Paşinyan özü etiraf edib". Yəni üçüncü digər tərəfin məsələyə qarışması doğru olmaz. Və bu fikirlərlə üçüncü digər ölkənin məsələyə aktiv müdxiləsini minimuma endirməyi bacardı.

Bu gün dünyada öz siyasi ambisiyası, mənfəəti naminə xalqının qanı və müsibətini tərziyə qoymağa hazır olanlar var. İlham Əliyev isə heç zaman xalqın fəlakəti ilə ehtikarlıq etməyib. Hətta milli intibah naminə belə millətin taleyi ilə oynamayıb. Şərəf və suverenliyi, humanizm və insaniyyəti liderlik fəaliyyətinin ana xəttinə çevirib. İlham Əliyev nəyə çalışır? Yalnız Qarabağı bütöv şəkildə geri almağa, Azərbaycanın bütün torpaqlarında Konstitusiya quruluşunu bərpa etməyə deyil, həm də müharibələrə son qoymağa, sülhə nail olmağa çalışır. Azərbaycan hakimiyyətinin, Ordumuzun Qarabağda apardığı bütün əməliyyatların, eləcə də son lokal antiterror tədbirlərinin kökündə bu amil dayanırdı. Müharibəyə son qoymaq! Çıxışlarında dəfələrlə bu hərəkatların mülki əhaliyə qarşı olmadığını dönə-dönə bəyan edir, bunun əyani sübutlarını mütəmadi ortaya qoyur, dünyaya sübut etməyə çalışır ölkə başçısı. Qarabağdakı ermənilərə öz vətəndaşları kimi müraciət edilməsi, onlara düzgün yol göstərilməsi də həmin bu missiya daxilində dərk ediləsi prosesdir. Sülh və əmin-amanlığın tam bərqərar olmasına çalışmaq əzmi bu gün İlham Əliyevin bəşər tarixinə verdiyi böyük töhfədir! Misir yazıçısı Nəcib Məhfuzun Nobel alarkən etdiyi çıxışda belə fikirlər yer alırdı: "Bizim sivil dövlətlərin rəhbərlərindən və onların sahibkarlarından əsl sıçrayış etməyi, müasir dünyaya yeni, qərəzsiz baxışla baxmağı tələb etməyə haqqımız və borcumuz var. Əvvəllər hər bir lider yalnız öz millətinin mənafeyi naminə hərəkət edirdi, qalanlarına rəqib və ya istismar obyekti kimi baxır, öz üstünlüyündən və şəxsi şöhrətindən başqa bütün digər dəyərlərə etinasız yanaşırdı. Bunun adı ilə əxlaq dağıdılıb, prinsiplər pozulub, ləyaqətsiz üsullara haqq qazandırılıb, saysız-hesabsız insan ölümə məhkum edilib. Yalan, hiylə, xəyanət və qəddarlıq bəsirət möcüzəsi kimi ehtiram edilir, böyüklüyün sübutu kimi görülürdü. Bu gün yanaşma kökündən dəyişməlidir. Bu gün sivil liderin böyüklüyü onun dünyagörüşünün qlobal xarakterinə və bütün bəşəriyyət qarşısında məsuliyyət hissinə görə qiymətləndirilməlidir. Danışmaq yetər, hərəkət etmək vaxtıdır. Beynəlxalq soyğunçuların və vicdanı pis insanların dövrünü bitirməyin vaxtıdır. Biz bütün dünyanın yaxşılığını düşünən liderlər dövrünə qədəm qoymalıyıq".




İlham Əliyev məhz, bu cür şəxsiyyətdir, güclü siyasi rəhbərdir, tək ölkəsinin deyil, dünyanın yaxşılığını arzulayan, bunu bəşəriyyət qarşısında məsuliyyət kimi dərk etdirməyə çalışan liderdir. Bəli, "bu gün sivil liderin böyüklüyü onun dünyagörüşünün qlobal xarakterinə və bütün bəşəriyyət qarşısında məsuliyyət hissinə görə qiymətləndirilməlidir"sə, qururluyuq ki, bizim rəhbərimiz - Ali Baş Komandan İlham Əliyev bu ali dəyərləri, mənəvi-əxlaqi keyfiyyətləri özündə ehtiva edən şəxsdir!

Ona görə İlham Əliyev fərqli yol tutur və tutduğu yolla əslində, xalqın əsrlərlə qazandığı nəcib xalq statusunu də təhdid və zərbələrdən qorumuş olur, onu erməni daşnakları, faşist təfəkkürlü terrorçularla eyniləşdirmir. Onlar kimi davranmamalı, onlar kimi danışmamalı olduğumuzun ən böyük örnəyini Ali Baş Komandan İlham Əliyev birinci elə özü meydana qoyur. Bu mənada İlham Əliyev bu gün insanlığın, bütövlükdə, bəşəriyyətin düşmənlərinə qarşı vuruşur. Onun hədəfi yalnız mənfur düşmən deyil, həm də bütün insanlığa qənim kəsilən qüvvələrdir, silahı yalnız hərbi texnika deyil, həm də insani, humanist ideyalardır. Böyük Mirzə Ələkbər Sabirin dediyi kimi, "Kim ki, insanı sevər, aşiqi-hürriyyət olur, / Bəli, hürriyyət olan yerdə də insanlıq olur"!

Sülh istəyi və insanlıq ləyaqətini bir araya cəm edib öz liderlik tərcümeyi-halının əsas xəttinə çevirməyi bacaran Azərbaycanın gücü - İlham Əliyev bu əzmlə ən uzaq tarixləri yaxına gətirir, ən əlçatmaz arzuları reallığa çevirir. Və bu yaxınlaşan uzaqlıqlardan bir də açılacaq Zəngəzur dəhlizinin üfüqləri görünür...

***ELNARƏ AKİMOVA,***
***YAP İdarə Heyətinin üzvü***

# Dünya birliyi yeni reallıqları qəbul edir

## Aİ-nin açıqlaması bunu təsdiqləyir

Xəbər verildiyi kimi, bu günlərdə Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişelin himayəsi altında onun diplomatik müşavirləri Saymon Mordu və Maqdalena Qrononun Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ilə görüşü olub. Avropa İttifaqının mətbuat xidmətinin yaydığı məlumata görə, görüşdə, həmçinin Fransa prezidentinin və Almaniya kanslerinin diplomatik müşavirləri Emmanuel Bonne və Yens Plotner, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar da iştirak ediblər. Şarl Mişel qısa fikir mübadiləsi üçün iştirakçılara qoşulub.

Aİ görüş iştirakçılarını Qarabağdakı mövcud vəziyyət və yerli əhalinin təcili ehtiyaclarının ödənilməsinə yönəlmiş müxtəlif səylər barədə fikir mübadiləsi aparmağa dəvət edib. Qeyd olunub ki, Avropa İttifaqı regionda baş verən bütün prosesləri diqqətlə izləyir. Görüşdə Hikmət Hacıyev Azərbaycanın Qarabağın erməni sakinlərinə humanitar yardım göstərmək və onların təhlükəsizliyini təmin etmək planlarını açıqlayıb.

### Azərbaycanın suveren hüquqları çərçivəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri

Azərbaycan Qarabağ bölgəsində sentyabrın 19-da başladığı lokal xarakterli antiterror tədbirlərini cəmi 23 saat ərzində uğurla tamamlamağa və bəhs olunan ərazidə özünün suverenliyini tam şəkildə təmin etməyə nail oldu. Antiterror tədbirlərinin nəticəsi olaraq separatçılar ağ bayraq qaldırmaq məcburiyyətində qaldılar. Azərbaycanın şərtlərinə uyğun olaraq qəbul edilən razılaşmaya əsasən, Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərksilah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Artıq prosesə başlanılıb və son bir neçə gündə xeyli silah-sursat müsadirə olunub.

Azərbaycan antiterror tədbirlərini özünün suveren hüquqları çərçivəsində həyata keçirib. Heç bir dövlət qonşu ölkənin onun ərazisində qeyri-qanuni ordu birləşmələri saxlamasına imkan verməz. Bu, suverenliyə, milli təhlükəsizliyə birbaşa təhdid anlamına gəlir. Təssüf doğuran haldır ki, məğlub Ermənistan qalib Azərbaycanın çağırışlarına məhəl qoymur və üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərdən yayınmaqla silahlı qüvvələrinin təxminən 10 minlik kontingentini ərazilərimizdən çıxarmağa tələsmirdi. Lokal xarakterli antiterror tədbirləri bu özbaşınalığın sonunu gətirdi.

### Mülki əhali hədəfə alınmayıb

İndi regionda qalib Azərbaycanın iradəsi və gücü ilə formalaşan yeni reallıqlar var. Aİ-nin açıqlaması Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində yaranmış yeni reallığın dünya birliyi tərəfindən qəbul edildiyini göstərir. Təsdiq edir ki, Azərbaycanın həyata keçirdiyi tədbirlər öz suveren ərazisində qeyri-qanuni hərbi birləşmələrin və onların hərbi infrastrukturunun neytrallaşdırılmasına yönəlmişdi.

Lokal xarakterli tədbirlərə start verilməzdən öncə Prezident İlham Əliyev müvafiq qurumlara yalnız legitim hərbi obyektləri hədəfə almaqla bağlı qəti göstərişlərini vermişdi. Bunu dövlətimizin başçısı xalqa müraciətində bir daha xatırladıb. Tədbirlər zamanı Prezident İlham Əliyevin bu qəbildən olan göstərişlərinə yüksək səviyyədə əməl olunub. Aİ-nin yaydığı məlumat bir daha təsdiq edir ki, Azərbaycan nəinki mülki əhalini hədəfə götürməyib, əksinə, onun təhlükəsizliyini təmin etmək üçün üzərinə düşən vəzifələri yerinə yetirib. Antiterror tədbirlərindən sonra da Azərbaycan mülki əhalinin öz yaşayış yerlərində qalmasını istəyir. Yerli sakinlər KİV-ə verdikləri müsahibələrdə birmənalı şəkildə bildirirlər ki, ərazidən mülki insanların çıxması məcburi xarakter daşımır, bu, onların öz istəyidir.



### İnsanlara humanitar yardım göstərilir

Aİ-nin yaydığı məlumatdan bir daha aydın olur ki, Azərbaycan özünün humanist siyasətinə sadiq qalaraq ərazidə yaşayan insanlara humanitar yardım göstərir, beynəlxalq strukturların humanitar missiyalarına şərait yaradır. Məlum razılaşma əldə olunandan sonra respublikamız tərfindən sentyabrın 22-də hər birinin tutumu 20 ton ərzaq məhsulları və gigiyenik vasitələr, eləcə də, iki çörək dolu maşın Xankəndiyə yola salınıb. Yük karvanı hazırda açıq olan Ağdam-Xankəndi yolundan istifadə edilməklə təyinat yerinə çatdırılıb. Humanitar karvan təyinat nöqtəsinə çatdıqdan sonra əhaliyə paylanılıb.

Eyni zamanda, Azərbaycanın mərkəzi hakimiyyəti Qarabağ bölgəsinin erməni sakinləri üçün yanacaq göndərib. Dövlət Neft Şirkətinə (SOCAR) məxsus yanacaqla dolu 2 nəqliyyat vasitəsi Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb. Yükə 24 ton Aİ 92 markalı benzin, 40 ton dizel yanacağı daxildir. Yanacaq ilk növbədə bağçalar, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinə paylanılması üçün nəzərdə tutulub.

Bir neçə gün öncə Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində yanğınla müşayiət olunan partlayış hadisəsi nəticəsində xəsarət alanlarla bağlı Azərbaycanın irəli sürdüyü yardımlar təqdirəlayiqdir - bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin 15 ədəd xüsusi təyinatlı yanğınsöndürmə avtomobili heyəti ilə birgə yanğının söndürülməsi üçün Ağdam-Əsgəran-Xankəndi yolu ilə Xankəndi şəhərinə göndərilib. Onlar fədakarlıq göstərərək yanğının daha geniş əraziyə keçməsinin qarşısını alıblar və onu bütünlüklə ram etməyə nail olublar.

Azərbaycan məlum hadisə baş verəndən sonra da Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərə humanitar yüklərin, o cümlədən çörək, un və digər zəruri qida məhsullarının yola salınmasını davam etdirir. Hadisə nəticəsində yaralanan şəxslərə yardım məqsədilə ilkin olaraq 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları (spreylər, kremlər, ağrıkəsicilər, antibiotiklər və s.) daşıyan təcili tibbi yardım maşını Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə yola salınıb. Sentyabrın 26-da bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi məqsədilə Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 38 ton benzin, 16 ton dizellə dolu növbəti 2 avtomobil göndərilib. Bu qəbildən olan tədbirlər gələcəkdə də davam etdiriləcək.



### Sülhün alternativi yoxdur

Aİ-nin yaydığı sənəddə ona vurğu edilir ki, antiterror tədbirlərinin nəticəsində yaranmış yeni reallıqlar şəraitində sülhün alternativi yoxdur və bundan sonra tərəflər davamlı sülhün əldə edilməsi üçün bütün səylərini səfərbər etməlidirlər.

Qeyd edək ki, regionda davamlı sülhün təmin edilməsi postmüharibə dövründə Azərbaycanın əsas çağırışlarından biridir. Müharibənin qalib tərəfi olan respublikamız heç bir ilkin şərt irəli sürmədən müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmi ortaya qoyur. Azərbaycan sülh istəyini adekvat yanaşmaları və təşəbbüsləri ilə təsdiqləyir. Ölkəmiz postmüharibə dövründə sülhyaratma prosesinə qoşulan vasitəçilərin iştirakı ilə aparılan danışıqlarda daim kontruktivlik ortaya qoyub, eyni zamanda, qarşı tərəfə beş bənddən ibarət müfəssəl sülh paketi təqdim edib. Ancaq Ermənistanın sülhyaratma prosesinə yanaşması tamam fərqlidir. Bu ölkə məğlub durumda olmasına rəğmən, indiyədək daim əsassız iddialar səsləndirməklə, xaricəki havadarlarının təhriki ilə müxtəlif manipulyasiyalara əl atmaqla sülh prosesinə xələl gətirib. Ölkəmizin uğurla tamamladığı antiterror tədbirləri nəticəsində yaranan yeni reallıqlar regionumuzda sülh üçün yeni pəncərə açıb. Güman etmək olar ki, Ermənistan bu fürsəti düzgün dəyərləndirəcək və avantürist siyasətindən birdəfəlik əl çəkəcək. Əks halda bu ölkə daha ağır fəsadlarla üzləşə bilər.

***Mübariz ABDULLAYEV***

# Çoxvektorlu xarici siyasət kursu

## Dünya birliyinə inteqrasiya milli maraqlar müstəvisində inkişaf edir

*Günel ABBAS*

Azərbaycanın çoxvektorlu xarici siyasət kursunun əsas itiqamətlərindən birini dünya birliyinə inteqrasiya, beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsi təşkil edir. Bu siyasi prioritetinə sadiqlik nümayiş etdirən dövlətimiz hazırda həm regional, həm də beynəlxalq müstəvidə yaxın tərəfdaş, etibarlı dost kimi şöhrət qazanıb. Möhkəm təməl üzərində yaradılan güclü iqtisadi potensial, maliyyə resursları, cəmiyyət həyatının bütün sahələrinin dinamik tərəqqisi, enerji, ərzaq təhlükəsizliyi kimi məsələlərdə əldə olunan uğurlar Azərbaycana tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət kursu yürütməyə imkan verir.

Vurğulamaq lazımdır ki, qlobal dünyanın əsas inkişaf meyarlarından sayılan inteqrasiya prosesi müasir həyatın başlıca elementlərindən birinə çevrilməkdədir. Bu mənada, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası olduqca səlis və milli maraqlar müstəvisində inkişaf etdirilməkdədir. Ölkəmiz bir sıra sahələr üzrə, xüsusilə enerji məsələsində mühüm bir coğrafiyanın təhlükəsizliyinin təminatında fəal iştirakçıya çevrilib. Bu isə Azərbaycanın geniş anlamda etimadının yüksəlməsinə təkan verir. Sözsüz ki, bu fəaliyyətin arxasında ölkə rəhbərliyinin gərgin əməyi, əzmkar və müstəqil xarici siyasət kursu dayanır. Bu gün olduqca mühüm iqtisadi-siyasi layihələrdə Azərbaycanın fikri və rəyi mütləq şəkildə öyrənilir. Buna misal olaraq, Ermənistanın 30 ilə yaxın müddətdə qlobal layihələrdən kənarda qalmasını göstərmək olar-bu, rəsmi İrəvanın yürütdüyü işğalçı siyasətin qarşılığı idi.

Milli Məclisin deputatı Kamran Bayramov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, bu gün dövlətimizin beynəlxalq arenada nüfuzu, yüksək imici, xüsusi çəkisi və yeri var. Deputatın sözlərinə görə, bütün dünya ölkələri Azərbaycanın regionda yaratmış olduğu yeni reallıqları görür və dəyərləndirir: "Bu, Prezident İlham Əliyevin yürütdüyü siyasətin beynəlxalq əməkdaşlığı və qlobal həmrəyliyə istinad etməsinin, humanizmi əsas götürməsinin göstəricisidir. Azərbaycan dövləti müasir dünya nizamında özünəməxsus yer tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, milli maraqlarımıza əsaslanan, qlobal əməkdaşlığı əsas götürən, ağıllı, çevik və operativ dövlət siyasəti Azərbaycanın beynəlxalq aləmdəki yerini müəyyənləşdirir. Buna paralel olaraq, Azərbaycanın dövlət başçısı dünya müstəvisində ən çox etimad göstərilən liderlərdən biri sayılır. Dünyanın bir sıra aparıcı dövlətləri bu gün Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirir, onun şaxələndirilməsini arzulayırlar. Azərbaycan dövlətinin dünyadakı nüfuzu durmadan artır. Ölkəmiz regional aktora çevrilib. Cənubi Qafqazla bağlı bütün məsələlərin həllində Azərbaycanın rəyi əsas götürülür".

Deputat son siyasi və hərbi proseslərin bir həqiqəti növbəti ortaya çıxardığı qənaətindədir. Azərbaycan Cənubi Qafqaz regionunun



lideridir: "Azərbaycanın qlobal və regional təşkilatlarda fəal təmsilçiliyi mövcuddur. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Avropa İttifaqı, GUAM və bir sıra beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir. Azərbaycan uzun illərdir ki, işğal faktının aradan qaldırılması uğrunda səy göstərir, hücum diplomatiyası həyata keçirir. Post-müharibə dövründə isə diplomatiyamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycana qarşı təşkil edilməsinə çalışılan beynəlxalq təzyiq kampaniyalarını neytrallaşdırmaqdır. Misal olaraq, BMT TŞ çərçivəsində Fransanın son 11 ayda 3 dəfə ölkəmizə qarşı əsassız kampaniyasının ifşasını göstərmək olar. Biz qalib ölkə, qalib xalqıq. Ən böyük üstünlüyümüz də elə bundadır".

Parlament üzvü bildirib ki, 44 günlük Vətən müharibəsi dövründə də Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu özünü aydın şəkildə göstərdi: "Ənənəvi ermənipərəst siyasət yürüdən ölkələr istisna olmaqla dünya birliyi Azərbaycanın haqlı mövqeyini dəstəklədi, torpaqlarını işğaldan azad etmək hüququnu tanıdı. Bu, təkcə ölkəmiz üçün deyil, eləcə də dünya üçün önəm kəsb edir. Azərbaycan yüksək sürətlə inkişaf etməkdə olan dövlətdir və yeraltı, yerüstü sərvətlərə malikdir. Hər zaman demokratik inkişaf yoluna sadiqlik nümayiş etdirən Azərbaycan bu gün həm də hərbi potensialı ilə seçilir - ölkəmiz Cənubi Qafqazın ən müasir, güclü və böyük ordusuna malikdir. 44 günlük Vətən müharibəsi Azərbaycanın hansı gücə sahib olmasını bir daha hər kəsə göstərdi".

Millət vəkili qeyd edib ki, dünyanın bir sıra ölkələrində qanlı toqquşmaların, ciddi böhranların hökm sürdüyü bir vaxtda Azərbaycanda siyasi sabitlik hökm sürür: "Prezident İlham Əliyevin region və dünya ölkələri, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr qurması bu baxımdan ciddi əhəmiyyət kəsb edir. Geosiyasi və qlobal reallıqların yaxından izlənməsi və düzgün qiymətləndirilməsi Azərbaycanı təhlükəsiz, inkişaf və tərəqqi yolunu tutmuş ölkəyə çevirib. Bu, Azərbaycanın dünya miqyasında qəbul edilmiş ciddi dövlət statusu qazanmasına töhfə verir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır

# Fransanın "məkri"

## Rəsmi Paris Zəngəzurda konsulluq açmaq istəyir

*Nardar BAYRAMLI*

Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, ardından lokal antiterror tədbirləri ilə suverenliyini bərpa etməsi dünyadakı ermənipərəst qüvvələrə hələ də rahatlıq vermir. Hələ Vətən müharibəsi zamanı Fransa hərbi əməliyyatların dayandırılması, Azərbaycana qarşı beynəlxalq rəyin formalaşdırılması, hətta cəza tədbirlərinin həyata keçirilməsi məqsədilə ciddi səylər göstərirdi. Təbii ki, Fransanın anti-Azərbaycan və Ermənistanı müdafiə etmək cəhdləri heç bir nəticə vermədi. Azərbaycan işğal altında olan torpaqlarını azad edərək heç bir qüvvənin tarixi ədalətin bərpa olunmasına maneçilik törətmək gücündə olmadığını bütün dünyaya göstərdi. Eyni zamanda, Fransa Türkiyənin Azərbaycana olan siyasi dəstəyini də həzm edə bilmir və bu qardaşlığın, dostluğun səyləri nəticəsində əldə etdiyimiz qələbə, eyni zamanda, Türkiyənin bölgədə nüfuzunun artması isə onu ciddi narahat edir.

Post-müharibə dövründə rəsmi Paris Azərbaycanla Ermənistan arasında sülh prosesinə maneçilik törətmək, bir yolla Cənubi Qafqaza daxil olması üçün bütün imkanlardan istifadə edir. Və bu məqsədinə çatmaq üçün Paşinyanın hakimiyyətinin zəifliyindən yararlanmağa çalışır. Son günlər siyasi proseslərdə Zəngəzur dəhlizi ilə bağlı ritorikanın artması isə Parisi növbəti qeyri-konseptual addımlara sövq edib. Belə ki, bu ölkə Zəngəzurda konsulluq açmaq istəyini dilə gətirib. Bu barədə Fransanın xarici işlər naziri



Ketrin Kolonna bildirib. O deyib ki, Fransa İrəvanda hərbi attaşe təyin edəcək və Sünikdə (Zəngəzurda) konsulluq açacaq: "Biz Ermənistanla müdafiə sahəsində əməkdaşlığımızı gücləndiririk. İrəvanda hərbi attaşemiz olacaq. Həmçinin tezliklə Sünik bölgəsində, sərhəd bölgəsində konsulluğumuzu açacağıq".

Xatırladaq ki, Fransanın Zəngəzurda konsulluq açmaq istəyi hələ bu ilin iyul ayında gündəmə gətirilmişdi. Belə ki, Fransa Milli Assambleyasındakı Fransa-Ermənistan dostluq qrupunun sədri Ann Lorans Petel və Senatdakı eyni adlı qrupun rəhbəri Jilber Lyük Devinaz xarici işlər naziri Ketrin Kolonnaya yazdıqları rəsmi məktubda bildirmişdilər ki, "Fransa Ermənistanın ərazi bütövlüyünü qorumaq üçün mühüm bir addım ata bilər. Bu, Sünikdə (Zəngəzur), Qafanın vilayət mərkəzində, yaxud Gorus şəhərində Fransanın konsulluq nümayəndəliyinin açılması ola bilər. Başqa ölkələr artıq bunu həyata keçiriblər. Belə bir addım regionda sabitliyin xeyrinə işləyər, həmçinin Fransa və Ermənistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi nöqteyi-nəzərindən qiymətli forpost rolunu oynayardı".

Fransız parlamentarilərin fikrincə, hərçənd Zəngəzur vilayəti Ermənistanın cənubunda yerləşir, əhalinin sıx məskunlaşdığı dağ regionudur, amma özünün 4500 kvadrat/kilometrlik sahəsinə, coğrafi baxımdan mərkəzdən uzaqda yerləşməsinə baxmayaraq, Cənubi Qafqazın geosiyasi məsələlərində önəmli yerə malikdir. Müraciətin müəllifləri hesab edirdilər ki, bu vilayəti önəmli edən digər amil, birinci növbədə, zəngin faydalı qazıntı yataqları və bunun da emalının Ermənistan iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olmasıdır. "Düzdür, Sünik (Zəngəzur) İrəvanla yalnız bir dağ yolu ilə bağlıdır, amma İran sərhədi vasitəsilə xarici aləmlə əlaqə saxlamaq üçün olduqca vacib dəhliz rolunu oynayır. 35 kilometrlik Ermənistan-İran sərhədi bu ölkə üçün böyük əhəmiyyət kəsb edir. 2020-ci ilin payızında, 44 günlük müharibə zamanı açıq qalmış yeganə ərazi kimi Ermənistanı "tam boğulmaqdan" qurtardı"- deyə Fransa parlamentarilərinin məktubunda vurğulanırdı.

Fransız məkri isə həqiqətən "sərhəd tanımır" - son günlər məkrli Makron da yerli televiziyalara müsahibəsində Azərbaycana qarşı əsassız iddialar səsləndirərək növbəti dəfə "erməni sevgisi" nümayiş etdirib. Makronun dövlətimizin 44 günlük müharibədə öz torpaqlarını erməni işğalından azad etməsini "Azərbaycanın 2020-ci ilin payız-qışında dəhşətli şərtlər altında ələ keçirdiyi region", "azlıqların, xüsusilə də orada yaşayan xristianların, bu torpaqda yaşayan erməni mənşə-



li əhalinin hüquqları tamamilə pozulub" kimi fikirləri tamamilə qəbul olunmazdır. Azərbaycanın 20 faiz ərazisinin ermənilər tərəfindən işğal edilməsi BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə təsdiqlənib. Dövlətimiz 44 günlük müharibədə məhz beynəlxalq müstəvidə tanınan ərazilərini BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq azad edib. Belə olan halda, Fransa prezidenti hansı əsasla bu fikirləri səsləndirir? Bu, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə hörmətsizlikdir. ATƏT-in Minsk qrupunun həmsədri olmuş Fransa qurumun fəaliyyəti dövründə davamlı şəkildə ermənipərəst mövqeyi ilə, həmsədr ölkə mandatının prinsiplərini pozaraq işğalçı Ermənistana hərtərəfli dəstək verib.

Sözügedən müsahibədə Makron rəsmi Parisin Ermənistanın ərazi bütövlüyünün qorunması məsələsini də diqqət mərkəzində saxladığını deyib. Əslində, bütün bunlar Parisin Azərbaycan-Ermənistan sərhədi yaxınlığında özünün konsulluğunu açmaq planının altında hansı niyyətin gizləndiyini aşkara çıxarır. Bu planın mahiyyəti "Ermənistanın ərazi bütövlüyünün" qayğısına qalmaq deyil. Məqsəd Zəngəzur dəhlizinin açılmasına əngəl törətməkdədir. Nəzərə almaq lazımdır ki, Zəngəzur dəhlizinin açılması 10 noyabr üçtərəfli Bəyanatının 9-cu bəndində əksini tapır. Həmin bənddə qeyd olunur: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Beləliklə, Zəngəzur dəhlizinin açılması Ermənistanın öhdəliyidir. Ona görə də, Fransa kimi ölkələrin təxribatçı addımları qəbulolunmazdır.

# Qanunsuz silahların müsadirə prosesi davam edir

## Müdafiə Nazirliyi məlumat yayıb




*NARDAR*

Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra dövlətimizin müvafiq strukturları tərəfindən ərazidə müvafiq tədbirlər görülür. Görülən tədbirlər sırasında mülki əhalinin təhlükəsizliyinin təmin olunması, onlara humanitar yardımların çatdırılması da diqqət mərkəzindədir. Bu prosesdə ən önəmli məsələlərdən biri qanunsuz erməni hərbi birləşmələrin tərksilah edilməsidir.

Ötən gün Müdafiə Nazirliyi Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə məlumat yayıb. Məlumatda müsadirə edilmiş silahların adı və onların sayı açıqlanıb. Bunlar aşağıdakılardır: Atıcı silah və qumbaraatanlar - 1105, artilleriya silahları - 60, HHM vasitələri - 226, döyüş sursatları - 425375, təchizat və ləvazimatlar - 2721, optik və digər cihazlar - 223, zirehli texnika - 22, avtomobil texnikası - 125, qoşqu - 21".

Qeyd edək ki, Ermənistan və onun xarici havadarları ordumuzun antiterror tədbirlərini Azərbaycanın Qarabağ regionunun dinc sakinlərinə hücumu kimi beynəlxalq ictimaiyyətə təqdim etməyə çalışır. Əslində, bu, Azərbaycanın BMT Nizamnaməsi əsasında özünün suveren ərazisində qanunsuz erməni silahlı birləşmələrini tərksilah etmək ilə bağlı hüquqları ilə tam uyğun olan antiterror tədbirləridir. Ermənistanın öz öhdəliklərinə nümayişkaranə şəkildə əməl etməməsi Azərbaycanın bu tədbirləri görməsini qaçılmaz edib.

Azərbaycan, Rusiya Federasiyası və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının ölkəmiz tərəfindən pozulmasına dair Ermənistanın Azərbaycanı günahlandırmaq cəhdləri də eyni şəkildə əsassızdır. Tam əksinə, Ermənistan özü qeyd olunan sənədin Azərbaycan ərazilərindən Ermənistan qüvvələrinin çıxarılmasına dair öhdəliklərinə əməl etmədi. Bu bəyanatın imzalanmasından ötən üç il ərzində Ermənistan tank və digər zirehli texnikalar, artilleriya qurğuları, çoxlüləli raket sistemləri, minaatanlar, elektromaqnitik döyüş vasitələri və digər hücum vasitələri kimi ağır silahlarla təchiz olunmuş 10 min nəfərdən artıq silahlı birləşmələri Azərbaycan ərazisində saxlamağa davam etmişdi. Bu qanunsuz silahlı qüvvələr Ermənistanın bilavasitə hərbi-texniki, logistik və maliyyə dəstəyi ilə, o cümlədən Laçın yolundan sui-istifadə etməklə saxlanırdı. Bu, Ermənistanın özünün revanşist siyasi məqsədləri üçün Azərbaycanın suveren ərazisində separatizmi alovlandırmaq cəhdinin tərkib hissəsi idi. Təsadüfi deyil ki, 2020-ci il üçtərəfli Bəyanatından sonra Azərbaycanda 2022-ci ilin avqust ayından indiyədək 2021-ci ildə Ermənistanda istehsal edilmiş, ümumilikdə 2,728 mina aşkarlanaraq zərərsizləşdirilib. Belə ki, Azərbaycan-Ermənistan sərhədi boyunca Kəlbəcər və Laçın rayonlarında 1119 mina, Qarabağ iqtisadi rayonunda isə 1609 mina aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə, üçtərəfli Bəyanatın imzalanmasından bugünədək 320-ə qədər insan minaların qurbanı olub.

Antiterror tədbirləri Ermənistanın üçtərəfli Bəyanata əsasən Azərbaycan əleyhinə bütün hərbi fəaliyyətlərin dayandırılması və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən qüvvələrini çıxarmaq barədə götürdüyü öhdəliklərin əksinə olaraq saxladığı silahlı hərbiləşmənin miqyasını nümayiş etdirmiş oldu. Təkcə, 24 saat davam etmiş antiterror tədbirləri zamanı qanunsuz hərbi birliklərin 90-dan artıq postu ələ keçirilmiş, 20 döyüş maşını, 40 artilleriya qurğusu, 30 minaatan, 6 elektromaqnetik döyüş sistemləri və 2 hava hücumundan müdafiə sistemləri zərərsizləşdirilmişdi. Əlbəttə ki, heç bir suveren dövlət öz ərazisində belə qanunsuz hərbi mövcudluğu qəbul edə bilməz və Azərbaycan da etmədi. Azərbaycan özünün bütün sakinlərinin sağlamlığı və təhlükəsizliyini qorumaq məqsədilə beynəlxalq hüquq və öz Konstitusiyasından irəli gələn hüquqlarına tamamilə uyğun hərəkət etdi.

Beləliklə, Ermənistanın Azərbaycanın suveren ərazisində qüvvədən qanunsuz istifadə etməklə yeni status-kvo yaratmaq və "təmas xətti məntiqi"nə əsaslanaraq boz zonanı saxlamağa bağlı sistematik cəhdləri dəf edilib. Onu da vurğulayaq ki, bugünlərdə Dövlət Təhlükəsizliyi Xidməti Qarabağ bölgəsinin erməni sakinlərinə müraciət edərək, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonuna daxil olan rayonların ümumi inkişafına, həmçinin erməni əhalinin rifahına, sülh şəraitində Azərbaycan cəmiyyətinə reinteqrasiyasına, sosial və humanitar məsələlərinin həll edilməsinə, qanunçuluğun, sabitliyin və ictimai təhlükəsizliyin qorunmasına təhdid yaradan əməllərdən, əmlakların, sənədlərin məhv edilməsi və sair bu kimi qeyri-qanuni hərəkətlərdən çəkinməyə, qısa müddətdə onlarda olan silah-sursatı təhvil verməyə çağırıb. Silahları təhvil vermiş və Azərbaycanın müvafiq qanunvericiliyinin tələblərinə əməl edən erməni millətindən olan şəxslərin hüquq və azadlıqlarının qorunmasına tam təminat verilir. Faktlar isə onu deməyə əsas verir ki, qarşıdakı günlərdə də Qarabağ ərazisində kifayət qədər qanunsuz silah-sursat müsadirə olunacaq.

# Son 8 ayda...

## 350 milyon manat ipoteka verilib

Son zamanlar ipoteka kreditlərinin əldə edilməsi ilə bağlı şərtlər sadələşib. Bu, mövcud olan statistik rəqəmlərdə də özünü göstərir. Belə ki, bu ilin yanvar-avqust aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 349,6 milyon manat kredit verilib. Azərbaycan Mərkəzi Bankından (AMB) bildirilib ki, bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 34,8 % çoxdur. Hesabat dövründə Fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 41,2 % artaraq 312,2 milyon manat olub.

### Şərtlər sadələşdirilir!

İl ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 41,9 % artaraq 220 milyon manata çatıb. Fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə 8 % azalaraq 65,7 milyon manata düşüb.

### Əvvəllər 12 ay, indi isə...

Dövlət xəttilə verilən ipoteka kreditlərinin sayının çoxalması barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən iqtisadçı Fuad İbrahimovun sözlərinə görə, xidmət müqaviləsi ilə işləyənlərin ipoteka kreditlərinə müraciət qaydaları asanlaşıb. Onun sözlərinə görə, əvvəllər müraciət üçün ən azı 12 ay iş fəaliyyəti tələb edilirdisə indi bu rəqəm 6 ayadək azaldılıb: "Eyni zamanda, orta aylıq gəlir hesablanan zaman 12 ay deyil, faktiki ayların sayı nəzərə alınır. Yəni, ipoteka krediti üçün müraciət edən vətəndaşımızın yalnız son 8 ayda iş fəaliyyəti varsa onun gəlirləri cəmlənərək 8-ə bölünür. Əvvəllər 12 aydan az fəaliyyəti olanlar ipoteka kreditlərinə müraciət etmək hüququna malik deyildilər".



İqtisadçı qeyd edib ki, ipotekaya müraciət edən sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirinin 70 faizi həcmində aylıq kredit ödəniş məbləği müəyyənləşdirilə bilir: "Düşünürəm ki, şərtlərin sadələşdirilməsi məhz ipoteka kreditinə müraciət edənlərin sayına təsir göstərib.

### Xarici valyuta gəlirləri də nəzərə alınır

Eyni zamanda, ipoteka kreditinə müraciətdə aylıq məcmu gəlirinin hesablanması zamanı Azərbaycanda əldə edilən, həm də onun hüdudlarından kənardakı mənbələrdən daxil olan milli və xarici valyutadakı gəlirlər nəzərə alınır. Məsələn, ipoteka krediti almaq istəyən şəxs xaricdən hər hansı gəliri varsa və onu təsdiq edən sənədə malikdirsə o zaman həmin məbləğ orta aylıq gəlirin hesablanması zamanı istifadə edilir. İpoteka kreditlərinə əlçatanlığın genişləndirilməsi üçün həm adi, həm də sosial ipoteka kreditləri üzrə faizlərin aşağı salınması və ilkin ödənişlərin azaldılmasına da ehtiyac var. Düşünürəm ki, zaman-zaman bu istiqamətdə də mühüm addımlar atılacaq".

*Y.BAYRAMOVA*

# İsveçin İslam "dərdi"

## Cəzasızlıq mühiti bu ölkədə müsəlmanlara qarşı aqressiyanı artırır



*Günel ABBASOVA*

Sirr deyil ki, son illərdə dünyada, xüsusilə özünü demokratiyanın beşiyi və keşikçisi adlandıran Qərbdə İslamofobiya meylləri artıb. İslamın müqəddəs kitabının yandırılması, fərqli dindən və ya millətdən olan insanlara qarşı zorakılıq, hətta qətl hadisələri, dini, irqi ayrı-seçkiliyin artması kimi hallar addımbaşı özünü göstərir. Maraqlıdır ki, bu məsələdə "dünyanın insan hüquq və azadlıqlarının qorunması örnəyi" sayılan İsveç daha çox fəallıq nümayiş etdirir. Bu ölkədə son dövrlərdə müqəddəs Qurani-Kərimə, İslam dininə qarşı xüsusi aqressiya müşahidə olunur. Siyasi ekspertlər bu meyllərin artan xəttlə inkişaf etməsinin cəzasızlıq mühitindən irəli gəldiyini bildirirlər. Dəfələrlə müsəlmanların müqəddəs kitabına qarşı neqativ münasibət göstərən, yandıran, cıran şəxslərin nəinki cəzalandırılmaması, hətta qorunması bu kimi əməllərin artmasına yol açır.

Təəssüf ki, vəziyyət get-gedə daha radikal mənzərə alır - tez-tez təkrarlanır, hətta insan həyatına qəsdə qədər artır.

Ötən günlərdə İsveçin Eskilstuna şəhərindəki ən böyük məsciddə yanğın baş verib. Məscid rəsmilərinin sözlərinə görə, yanğın qəsdən törədilib. Belə ki, qonşuluqda yaşayan ailə bir ildir ki, bu barədə hədə-qorxu gəlirmiş və hadisənin fonunda məscid yanıb. Bu da yanğının bilərəkdən törədilməsinə əsaslı şübhələr yaradıb.

Politoloq Züriyə Qarayeva da "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, son illərdə Avropada islamafobiya meyillərinin şiddətlənməsinin şahidi oluruq: "Bu istiqamətdə ciddi hüquq pozuntularını göstərən hadisələr baş verir. XIII-XIV əsrlərdə Kordova xilafətinə qarşı kilsənin hücumları var idisə, artıq irqçilik və islamofobiyanın əsas carçısı kilsələr deyil, bu kimi əməllərə qurumlar və dövlət səviyyəsində dəstək verilir. Demək olar ki, nasizmin nümayişinin şahidinə çevrilirik. Bu hallara Almaniyada, Hollandiyada, Fransada da rast gəlmək mümkündür. Fransada xüsusən islam dininə qarşı bu cür meyillərin artması, ksenofobiya hallarının artması müşahidə olunur. İsveç isə bu prosesdə xüsusi vurğulayacağımız ölkələrdəndir. İsveçdə islam dininə qarşı təxribat xarakterli hadisələr davamlı hal alıb. Quranın yandırılması, məscidlərə qarşı hörmətsizliklər, dini yöndə qadağaların qəbul edilməsi halları İsveçdə də müşahidə olunur. Ən son bununla bağlı Türkiyə prezidentinin də beynəlxalq ictimaiyyətə çağırışı olmuşdu. İsveçin bu addımları atması dünyada artıq İslamafobiyanın daha da intensivləşməsinə yol açan bir vasitədir. Bu siyasətin arxasında müəyyən siyasi maraqlar da var. İsveçin Türkiyə əleyhinə olan siyasəti, terrorist qruplaşmaları dəstəkləməsi, bu istiqamətdə Türkiyənin müəyyən müddət İsveçin NATO-ya üzvlüyünə qarşı bir mövqe qoyması, ancaq sonradan yumşalmasının şahidi olduq. Buna baxmayaraq İsveç terror qruplaşmaları ilə bağlı verilən vədlərdə sözünü tutmadı. Əksinə, İsveç bu istiqamətdə siyasətini intensivləşdirdi. Əlbəttə ki, bu siyasət cəzalandırılmalı, İsveçə qarşı sanskiyalar tətbiq olunmalıdır. İslamafobiya meyillərindən İsveçi kənarlaşdırmaq lazımdır. Məlum məsələdir ki, son dövrlər Avropada sağçı partiyalar hakimiyyətə gələrlər, bu İsveçə də aiddir. Avropa İnsan Haqları Komissiyası, BMT-nin insan haqları haqqında bəyannaməsi daxil olmaqla bu istiqamətdə bütün prinsiplərin İsveç tərəfindən pozulduğunu diqqətdə saxlayaraq ciddi addımlar atmaq lazımdır".

# İki terrorçu Ruben

## Rubenovu Moskvada güllələmişdilər, Vardanyanın taleyi necə olacaq?




Ötən ilin sentyabr ayında Rusiya sülhməramlı kontingentinin müvəqqəti xidmət apardığı Azərbaycan ərazisinə, konkret desək, Xankəndiyə çağırılmamış qonaq kimi "təşrif gətirən", sonradan isə "özünə yer etməyə" çalışan Ruben Vardanyan saxlanıldı. Belə ki, Azərbaycan Respublikasının ərazisinə qeyri-qanuni gələrək qondarma "Dağlıq Qarabağ respublikasının dövlət naziri" vəzifəsində çalışmış 1968-ci il təvəllüdlü Ruben Karleni Vardanyan sentyabrın 27-də "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi qulluqçularının sayıqlığı nəticəsində Azərbaycan Respublikasından Ermənistan istiqamətində hərəkət edərkən saxlanılıb. DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, R.Vardanyan Xidmətin Çevik Hərəkət Qüvvələri əməkdaşlarının müşayiəti ilə Bakı şəhərinə gətirilib. Saxlanılan şəxs barəsində müvafiq qərar qəbul edilməsi üçün aidiyyəti dövlət orqanlarına təhvil verilib.

Bəli, bir zamanlar Moskvada yaşayan erməni əsilli "iş adamı" olan Ruben Vardanyan ötən ilin sentyabrında Rusiya vətəndaşlığından imtina edərək Qarabağa gəlmişdi. Amma planları "qaydasında" getmədi - son nəticədə isə Azərbaycanın ədalət mühakiməsinə cavab verməli olacaq.

Vaxtilə Rubenin bir adaşı da olub - Rubenov soyadlı həmin Ruben də bir zamanlar Azərbaycana rəhbər göndərilmişdi, lakin... Ruben Rubenovun sonrakı taleyi adaşından fərqli daha acınacaqlı oldu. O, Azərbaycan SSR KP MK-nın Birinci katibi vəzifəsində işlədiyi dövrdə erməni sələflərinin anti-Azərbaycan siyasətini daha geniş miqyasda davam etdirməyə çalışmışdı və cəmisi 6 ay sonra geri çağırılmışdı. Tale ona respublikamızda törətdiyi cinayət əməllərinin əvəzini, necə deyərlər, artıqlaması ilə ödətdirmişdi - Hayla gələn vayla getmişdi. Ruben Rubenov 1937-ci il sentyabrın 15-də həbs olunmuş, həmin ilin noyabrın 27-də isə terror aktları təşkil etməkdə və əksinqilabi terrorçuluq fəaliyyətində iştirakda ittiham olunaraq Moskvada güllələnmişdi...

*Mənsur*

# Osman Mirzəyevin böyük kədəri - Sevinc Osmanqızı

## Erməni dəyirmanının köhnə-yeni "suyu" bu dəfə "etnik təmizləmə" təbliğatı aparır



Azərbaycan Qarabağ regionunda həyata keçirdiyi lokal antiterror tədbirləri nəticəsində separatçı xunta rejimini aradan qaldırdı. Nəticədə dövlət suverenliyimiz tam şəkildə təmin edilmiş oldu. Antiterror tədbirlərindən ötən 8 günə yaxın müddətdə isə baş verənlər beynəlxalq aləmin diqqət mərkəzindədir. Azərbaycan əvvəlcədən bəyan etdiyi kimi, Qarabağda yaşayan erməni sakinlərinin reinteqrasiyası ilə bağlı mühüm tədbirlər görür, erməni sakinlərlə təmaslar həyata keçirilir. Eyni zamanda, Azərbaycan dövləti bəyan edib ki, Qarabağda qalıb yaşamaq istəyən hər bir erməni sakinə vətəndaşlıq hüququ verməyə hazırdır. Təbii ki, kiminsə köçüb getməsinə də mane olmaq olmaz - bu, onların öz seçimidir. Azərbaycan dövləti Qarabağdan Ermənistana getmək istəyən ermənilər üçün bütün rahatlığı və təhlükəsizliyi təmin edib. Hətta yolda avtomobili ilə bağlı problem yaşayan insanlara kömək göstərilir, ərzaq və su paylanılır. Bu isə Azərbaycanın ortaya qoyduğu humanizmin bariz sübutudur.

Azərbaycanın bu humanist davranışı isə təbii olaraq Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərpa olunmasını istəməyən qüvvələr tərəfindən manipulyasiya edilir. Məsələn, Fransa kimi, digər ermənipərəst mərkəzlər kimi yalnız şər-böhtan axtarışında olanlar öz xoşu və qərarı ilə (bu fakt videoçəkilişlərdə açıq şəkildə ifadə olunur) Qarabağdan Ermənistana gedənlər üzərindən uğursuz siyasi spekulyasiyalara əl atmağa çalışırlar.

Maraqlıdır ki, erməni dəyirmanının suyu olmağa öyrəşmiş Sevinc Osmanqızı da bu azsaylı "manipulyativ xora" qoşulmağa niyyətlənib. Aldığı direktivlərə əsasən Osmanqızı ermənilərin guya "etnik təmizləməyə" məruz qalmasını təbliğ etməyə çalışır. Uğursuz "alim", özünü hər yerdə "millətpərəst", "vətənpərvər" kimi qələmə verən, həqiqətdə isə erməni oyunlarının hoqqabazı olmadan uzağa gedə bilməyən Cəmil Həsənli isə ona bu işdə "züy tutur".

Osmanqızı Həsənliyə xitabən müqəddiməsində ermənilərin öz xoşu ilə köçünü əks etdirən şəklin sosial şəbəkələrdə "etnik təmizləmə" kimi "populyarlaşdığını" bildirir və "siz bu köçdə etnik təmizləmə görürsünüzmü" kimi ritorik sualla "antimilli şura"çını sanki təlimatlandırır və yönləndirir. Ermənidən betər erməni olmaq uğrunda gedən "mübarizədə" Sevinci qabaqlamağa çalışan Həsənli isə ermənilərin Qarabağı öz xoşu ilə tərk etməsini gah "deportasiya", gah da "köçürmə" adlandırır. Fakt ortadadır-bu insanlar yeni antimilli alətə çevriliblər. Öz xoşu ilə ərazini tərk etməyi "deportasiya" adlandıran "alim" elm üçün böyük həqarətdir. Digər tərəfdən, niyə C.Həsənli və ya Osmanqızı vaxtilə azərbaycanlıların öz dədə-baba yurdlarından ayaqyalın, başıaçıq qovulmasını, zorla, qətlə yetirilmək qorxusu ilə ac, susuz şəkildə qaçqın düşməsindən, təcavüzə uğramasından və nəhayət öz doğma yurd-yuvasından, anadan olub böyüdüyü torpaqda yaşamaq hüququnun zorla əlindən alınmasından niyə danışmır? Amma C.Həsənli Qarabağda doğulub böyüyən ermənilərin Ermənistana keçmək arzusundan "heyfslənir"...

Bu kimi simasızlıqla Azərbaycanın apardığı humanist siyasətə ləkə yaxmağa çalışmaları sevinclərin, cəmillərin və onların timsalında onlar kimi alətə çevrilmişlərin azərbaycanlı adlandırılmağa layiq olmadığını ortaya qoyur. Fransız məkrinin (Makronunun) ayaqaltısı olmaq üçün növbəyə düzülən sevinclər və cəmillər bu kimi nüanslarla özlərini ifşa edirlər. Belə xəyanət isə bağışlanmazdır...

*SADİQ*

# Yeni dərs ili "tıxac yaradır"

Tıxac problemi böyük şəhərlərin, xüsusilə meqapolislərin və paytaxtların ən müasir problemlərindən sayılır. Bakı kimi böyük şəhərdə yaşayan hər kəs bilir ki, "tıxac mövsümü"ndə xüsusi pik saatlarda küçələrdə hərəkət çətinləşir. İstər avtobus və metrodan istifadə edənlər, istərsə də öz şəxsi avtomobili olanlar səhər və axşam pik saatlarda tıxacdan əziyyət çəkirlər. Hətta sürücülər tıxacların avtomobillərə ziyan vurduğunu da qeyd edirlər. Bununla belə, görülən tədbirlər, aparılan maarifləndirmə işi də pproblemin həllinə kəskin təsir edə bilməyib. İllərdir müşahidə olunan mənzərə yenə də davam edir. Düzdür yay aylarında bu problem o qədər də gözə dəyməsə belə...

Sentyabrın 15-dən etibarən yeni tədris ilinin başlanğıcı özü ilə bərabər tıxac problemini də yenidən aktuallaşdırıb. Məktəblərin açılması nəqliyyatın hərəkətində daha ciddi çətinliklərə səbəb olub. Dərslərin başlama və yekunlaşma saatlarında Bakıda bəzi məktəblərin qarşısındakı yollarda nəqliyyatın həddindən artıq sıxlığı müşahidə olunur. Mərkəzi hissələrdə yerləşən məktəblərin qarşısında isə böyük tıxaclar yaranır. Səbəb övladlarını məktəbə şəxsi nəqliyyat vasitələri ilə aparıb-gətirən valideynlərin çoxluğudur. Nəzərə alsaq ki, dərslərin başladığı və bitdiyi saatlar "təbii tıxac" probleminin yaşandığı saatlardır, Bakının tıxac probleminin əsas səbəbləri sırasında məktəb amilinin də xüsusi yer tutmasını təəssüflə qeyd etmək məcburiyyətindəyik. Çıxış yolu olaraq bununla

## Problemin həll yolları müxtəlifdir

bağlı müxtəlif təkliflər səsləndirilir. Məktəb avtobusu xidmətinin yaradılmasını, hətta məktəblərin mərkəzdən köçürülməsini belə təklif edənlər olub. Bəs, bu tıxacların heç olmasa azalması üçün effektiv çıxış yolu nədir?

## Qabaqcadan tədbir görülməli idi...

Sualımızı cavablandıran nəqliyyat üzrə ekspert Elməddin Muradlı "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, Bakıda nəqliyyat sistemi ilə bağlı bir sıra problemlər yaşanmaqdadır. Nəqliyyat axını və proqnozlaşdırılması sistemi isə daha zəif şəkildə qurulub. Onun sözlərinə görə, son günlər yağışların yağması və məktəblərin açılması paytaxt yollarındakı vəziyyəti daha da çətinləşdirib: "Məktəblərin qarşısında uzun tıxaclara şahidi oluruq. Belə bir halın yaşanacağı əvvəlcədən məlum idi. Yəni dərs ili başlayan kimi tələbə və şagirdlərin yollardan istifadəsi təbiidir. Övladlarını təhsil müəssisəsinə aparan valideynlər də az deyil. Bu da öz növbəsində avtomobillərin sıxlığına və tıxaca əsas səbəb olur. Payız fəslində yağışların yağmasını da nəzərə alsaq, bu, olduqca çətin bir vəziyyət yaradır. Ona görə də bununla bağlı öncədən bir plan hazırlanmalı və tədbir görülməli idi".



## Məktəblərdə parklanma yeri olmalıdır

E.Muradlının sözlərinə görə, əslində, məktəblər yerləşdiyi ərazidə bu qədər tıxac yaratmamalıdır: "Məktəblərin yerləşdiyi ərazidə nəqliyyatın hərəkətinə ciddi mane yaranmasının səbəbi birbaşa təhsil ocaqları deyil. Məktəblərin yanında tıxacı yaradan faktorlar var. Onları aradan qaldırsaq, bu qədər qarışıqlıq yaşanmaz. Həmin faktorlardan biri məktəblərin parklanma yerinin olmamasıdır. Yeni məktəblər tikilən zaman parklanma yerləri nəzərə alınmır. Son illər müxtəlif liseylər, özəl məktəblər açılıb. Təəssüf ki, onların bir çoxu açılanda da parklanma yeri nəzərə alınmayıb. Övladlarını məktəbə gətirən valideynlər məcburən maşını yolun ortasında saxlayırlar və tıxac yaradırlar".



## Yanlış düşüncə...

Ekspert problem yaradan digər məsələnin "mərkəzdə yerləşən məktəblər daha yaxşı təhsil verir" düşüncəsi olduğunu bildirib: "Əvvəllər valideynlər övladlarını yaşadıqları yerə yaxın məktəbə aparırdılar. İndi nədənsə belə tendensiya var ki, şəhər mərkəzində olan məktəblər, liseylər daha yaxşı təhsil verir. Ona görə mərkəzdəki məktəblərə axın çoxdur. Bu da problem yaradır. Fikrimcə, bu faktorun da aradan qalxması üçün maarifləndirmə aparılmalıdır. Şəhər mərkəzindəki məktəblərin daha yaxşı təhsil verməsi mifi dağılmalıdır. Valideynlər uşaqlarını yaşadıqları ərazidəki məktəbə göndərsələr, böyük qismi elə piyada-gedib gələcək və problem də böyük ölçüdə həllini tapacaq".

*Yeganə BAYRAMOVA*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Yuxumuz şirin olsun...

## Tez və gec oyanmağın orqanizmə təsiri

Vaxtaşırı olaraq yuxunun bədənə və zehnə necə təsir etdiyi barədə məlumatlarla qarşılaşırıq. Hər kəs bilir ki, yuxu bədənin özünü yenilədiyi vaxtdır və az istirahət insan orqanizmində daha çox problem deməkdir. Lakin bəzən işlərin və ya dərslərin çoxluğu, bəzən də ekran qarşısında saatlarla vaxt keçirmək kimi səbəblərdən yuxumuzu yetəri qədər almırıq. Tədqiqatlar isə göstərir ki, yetkin insanlar orta hesabla 6-8 saat yatmalıdır. Elmi araşdırmalara görə, insanın öz gücünü tam bərpa etməsi üçün 12 saat istirahət və yuxu lazımdır. Lakin vacib deyil ki, 12 saatı yuxuya həsr edəsiz. 8 saat normal yuxu kifayətdir, amma əsas məqamlardan biri saat neçədə yatmaqdır.



### Saat 19-21 arası yatdıqda...

Bir çoxları gecə saatlarında yuxuya gedib, səhər 9-10-da oyanaraq, 8 saatı başa vurduğundan arxayın olur. Lakin yuxu hesablamasına görə, insanın saat neçədə yatmasından asılı olaraq onun yuxu saatı hesablanır. Belə ki, axşam saat 19-21 arası yatdıqda, bu müddət 6-7 saat yuxuya bərabərdir.

Saat 20 - 22 arası yatmaq 6 saat yuxu,

22 -24 arası yatmaq 4 saat yuxu, gecə 12-dən 2-ə kimi yatmaq 2 saat yuxu, gecə saat 2-4 arası yuxu isə cəmi 30 dəqiqə yuxuya bərabərdir.

Səhərəyaxın yatmaq isə cəmi 15 dəqiqə yuxu almaq deməkdir.

Göründüyü kimi, gecə 2-dən sonra yatmaq səhərə kimi 8 saat yuxu etmir. Saata baxdıqda siz 8 saat hesablaya bilərsiz, amma yuxu fazalarına görə orqanizm cəmi 1-2 saat yatmış hesab olunur.

### Bu saatlarda yatsanız...

Ən qiymətli və uzun yuxu vaxtı saat 21-23 arasıdır. Əgər bu saatlarda yatsanız, sonra yatmasanız belə, elə hesab edilir ki, 6-7 saat yatmısız. Çünki məhz bu saatlar arası yuxuda orqanizm gücünü bərpa edir, beyin təmizlənir, hormonlar qaydasına düşür. Düzgün vaxta yatmadıqda xroniki yuxusuzluq, yorğunluq sindromu başlayır, orqanizm məhv olur.

### Yuxu niyə önəmlidir?

Milyonlarla insan üzərində aparılan epidemioloji tədqiqatların nəticəsi əsasında bu sadə fakta varmaq olar: nə qədər az yatarsan, ömrün bir o qədər qısalar. Yəni qocalmamaq və mümkün qədər sağlam qalmaq istəyirsinizsə, yaxşı gecə yuxusuna sərmayə qoymalısınız.

Yuxusuzluğun əsas səbəblərindən biri işlərin çoxluğudur. Bir çox insan işlərini tamamlamaq üçün yuxusuz qalmağı seçsə də, bu, uzun müddətdə məhsuldarlığa mənfi təsir göstərir. Yuxusuzluğun səbəb olduğu və nəticədə məhsuldarlığı aşağı salan bəzi təsirlər bunlardır:

### Yavaş reaksiya

Bədən kifayət qədər istirahət etmədikdə beyin yorğun olur, buna görə də konsentrasiyanı asanlıqla itirə və ya ləng davrana bilirsən. Bədən hərəkətlərinin yavaşlaması isə öz növbəsində ətrafındakı dəyişikliklərə reaksiya sürətini azaldır. Bunlar şəxsi həyatın bir kənara, karyerana ciddi zərər verə bilər.



### Səhv etməyə meyillilik

Yetəri qədər yatmadıqda səhv etmək ehtimalı normal yuxu alan insanlarla müqayisədə xeyli yüksəkdir. Bu, istənilən fəaliyyətdə problem demək olsa da, xüsusən iş yerində həssas və ya həyati mərhələləri idarə edərkən olduqca risklidir.

### Yaradıcılığın zəifləməsi və yaddaşsızlıq

İş zamanı beyin adenozin toplayır, bu birləşmə zehni yuxuya doğru manipulyasiya edir. Belə məqamda problemləri əsaslandırmaq və tənqidi təhlil etmək qeyri-mümkün olur. Əgər kifayət qədər istirahət edilməzsə, problem davam edəcək.

Yəqin ki, yuxusuzluq problemi yaşayan hamının ən ümumi problemlərindən biri yaddaşsızlıqdır. Kifayət qədər yatan zaman beynin yaddaş seqmenti detallara daha çox diqqət yetirir. Beynini çoxlu məlumatla doldurmaq və az yatmaq isə məlumatın sonradan itirilməsinə səbəb olur. Beləliklə, xüsusilə işləyərkən və ya oxuyarkən yeni bacarıqlar öyrənmək qabiliyyəti zəifləyir.

### Çox yatmağın mənfi tərəfləri

Az yuxunun təsirlərindən tez-tez danışılır, amma məsələnin digər tərəfini də unutmamaq lazımdır: həddindən artıq yuxu... Bu özü də keyfiyyətsiz yuxunun əlaməti olduğu üçün, bədənimiz keyfiyyəti alana qədər yatmaq istəyir, bu proses isə sanki sonsuz bir döngəyə girir.

Səkkiz saatlıq yuxudan sonra hələ də yorğun və halsız hiss edilərsə, tamamilə fərqli bir problem ola bilər. Uzun müddət mürgüləməyə məcbur edən və keyfiyyətsiz yuxuya səbəb olan bir çox fərqli problemlər var. Həddindən artıq yuxu bizi qan dövranını stabil saxlamaq üçün vacib olan fiziki fəaliyyətdən məhrum edir. Belə ki, əgər, 8 saatlıq yuxudan sonra belə gözlərimizi çətinliklə açırıqsa, həkimə getmək vaxtı gəlmiş ola bilər...

### Keyfiyyətli yuxu üçün nə etməli?

Əgər özünüzü müntəzəm olaraq yorğun və ya yuxulu hiss edirsinizsə bu, kifayət qədər keyfiyyətli yuxu almadığınıza işarədir. Problemi həll etmək üçün isə bir çox yol var. Əvvəlcə bir yuxu rejimi qurmaq lazımdır. Çox gec olmayan bir yuxu saatı seçdikdən sonra, bu vaxta qədər sakitləşmək üçün bəzi məşğuliyyətlər tapıla bilər. Məsələn: kitab oxumaq, meditasiya etmək və s. Yuxumuz şirin olsun...

***Yeganə BAYRAMOVA***

## *İdman*

### Ciddi hazırlığa ehtiyac var




"Meksikada ardıcıl iki yarış keçirildi. Hər ikisində üç idmançı ilə təmsil olunduq. Buna baxmayaraq, uğurlu nəticələr əldə etdik".

Bu sözləri AZƏRTAC-a açıqlamasında parataekvondo üzrə Azərbaycan milli komandasının baş məşqçisi Fərid Tağızadə Meksikanın Verakruz ştatında keçirilmiş Qran-Pri turniri və dünya çempionatındakı nəticələri şərh edərkən deyib.

Mütəxəssis 70 kiloqram çəki dərəcəsində çıxış edən İmaməddin Xəlilovun dünya çempionu olmaqla ilkə imza atdığını bildirib: "Parataekvondo Paralimpiya Oyunlarının proqramına salındıqdan sonra ilk dəfə idmançımız dünya çempionu adına layiq görüldü. Əbülfəz Abuzərli isə fəxri kürsünün üçüncü pilləsinə qalxdı. Sevinirik ki, idmançılarımız Vətənə bu cür nəticələrlə qayıtdılar".

Baş məşqçinin sözlərinə görə, qarşıda yığmanı İngiltərənin Mançester şəhərində keçiriləcək Qran-Pri turnirinin final mərhələsi gözləyir: "Uğurlarımızın davamını gətirmək üçün ciddi hazırlığa ehtiyac var. Hazırda üç idmançımız dünya reytinqində ilk "altılıq"dadır. Qürurverici haldır ki, İmaməddin bu yarışlardan sonra reytinqdə ilk pilləyə yüksəldi. "Paris-2024" Yay Paralimpiya Oyunlarında da ölkəmizi ən yüksək səviyyədə təmsil etməyə çalışacağıq. Əlimizdən gələni edəcəyik ki, oradan da qızıl medallarla qayıdaq".

Qeyd edək ki, Qran-Pri turnirində iki qızıl, bir bürünc medal qazanan yığma dünya çempionatında bir qızıl və bir bürünc mükafata sahib çıxıb. İmaməddin Xəlilovun (70 kiloqram, K-44) çempion olduğu mundialda Əbülfəz Abuzərli (80 kiloqram, K-44) bürünc medala, Azərbaycan millisi isə komanda hesabında üçüncü yerə layiq görülüb.

### "Sumqayıt" və "Sabah" cərimələnib




AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Premyer Liqanın VII turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib. "Sumqayıt" - "Turan Tovuz" görüşünün (0:0) 90+3-cü dəqiqəsində ev sahibi komandanın məşqçisi Mübariz Orucov meydana daxil olaraq hakimin qərarına etiraz etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün biri şərti olmaqla 2 oyun cəzalandırılıb. "Gənclik şəhəri" təmsilçisi isə 1 500 manat cərimələnib. Cəza ilə bağlı sınaq müddəti 3 ay təyin edilib.

"Sabah"la matçda (2:2) 4 futbolçusu sarı vərəqə ilə cəzalanan "Kəpəz" klubu 700 manat cərimə edilib. Bundan başqa, təcili tibbi yardım avtomobili stadiona təyin olunmuş vaxtdan gec gəldiyinə görə "Sabah" klubu 1 000 manat cərimə ödəməli olacaq. "Səbail" - "Araz-Naxçıvan" görüşündə (1:0) isə hakimin final fitindən sonra meydana kənar şəxs daxil olduğuna görə paytaxtı təmsilçisi 800 manat cərimə edilib.

### "Qarabağ"a xəbərdarlıq

AFFA İntizam Komitəsi Azərbaycan Premyer Liqasının VII turunun "Qəbələ" - "Qarabağ" oyununda (1:2) qeydə alınmış qayda pozuntuları ilə bağlı qərarlarını açıqlayıb. AZƏRTAC xəbər verir ki, həmin matçda beş futbolçusu sarı vərəqə ilə cəzalandırılan "qırmızı-qaralar" 700 manat cərimə edilib.



Görüşün 42-ci dəqiqəsində meydana daxil olaraq, rəqib oyunçuya aqressiv şəkildə təzyiq göstərən "Qəbələ"nin məşqçisi Rasim Ramaldanov 2 oyun cəzalanıb, klubunu isə 1 000 manat xərcə salıb.

Ağdam təmsilçisinin müdafiəçisi Kevin Medina təcavüzkar davranışa görə birbaşa qırmızı vərəqə aldığı üçün ikisi şərti olmaqla 4 oyunluq diskvalifikasiya edilib. Klub kolumbiyalı oyunçunun hərəkətinə görə 3 000 manat cərimələnib.

Oyunun 89-cu dəqiqəsində "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov ikinci sarı vərəqədən qırmızı vərəqə aldığına görə 1 oyun cəzalanıb, klub isə 1 000 manat cərimə olunub.

Bundan başqa, qonaq komandanın azarkeşləri tərəfindən oyunun rəsmi şəxslərinin ünvanına qeyri-etik ifadələr səsləndirildiyinə və bu hal mövsümdə ilk dəfə yaşandığına görə "Qarabağ" klubuna xəbərdarlıq edilib.

### Avrokubok matçları oyun təcrübəmizə bilavasitə təsir edir

"Gündə bir dəfə olmaqla məşqlərimiz davam edir. Hazırda heyətimizdə olan oyunçuların 80 faizi əvəzedici komandada da oynayır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında "Qəbələ" klubunun U-19 komandasının baş məşqçisi Famil Xəlilov oktyabrın 4-də UEFA Gənclər Liqasının I turunda Macarıstanın "Puşkaş Akademiyası"na qarşı keçirəcəkləri oyunla bağlı danışarkən deyib.

40 yaşlı mütəxəssis əsas hazırlığı oyunlar üzərində qurduqlarını bildirib: "Hətta dünən "Qarabağ"ın U-19 komandası ilə qarşılaşdıq. Gələn tur "Neftçi" ilə, sentyabrın 30-da isə "Kəpəz" komandası ilə oynayacağıq. Həmin matçlarda artıq UEFA Gənclər Liqasındakı rəqibimizə qarşı necə oyun sərgiləyəcəyimizi müəyyənləşdirəcəyik. Belə görüşlər futbolçularımızın oyun təcrübəsinə bilavasitə təsir edir. Çalışırıq ki, oyunçularımız zədələnməsinlər".



O, Macarıstan təmsilçisinin kifayət qədər güclü futbolçulardan təşkil olunduğunu vurğulayıb: "Fiziki cəhətdən güclü komandadır. Orta boy göstəricisinə görə bizdən üstündürlər. Oyunçuların əksəriyyətinin boyu 190 santimetrdən çoxdur. Bu səbəbdən matç zamanı top havada nə qədər çox qalsa, mübarizəmiz çətinləşəcək. Ona görə də çalışmalıyıq ki, oyunu yerdən quraq. Bizim də texnikalı və keyfiyyətli oyunçularımız var. Komandamızda sürətli futbolçular çoxluq təşkil edirlər. Düzgün oynasaq, qələbə qazana bilərik. Şanslar bərabərdir. Potensial rəqiblərimizi dəyərləndirsək, püşkdə ən uyğun komanda ilə düşdüyümüzü deyə bilərəm".

Qeyd edək ki, "Qəbələ" "Puşkaş Akademiyası"na qarşı ilk oyununu oktyabrın 4-də evdə, cavab matçını isə oktyabrın 24-də səfərdə keçirəcək. Bu cütün qalibi növbəti raundda "Olimpiakos" (Yunanıstan) - "Leççe" (İtaliya) duelinin güclüsü ilə üz-üzə gələcək.

### UEFA-dan yeni təyinat




AFFA-nın Uşaq və Gənclər üzrə Yarışların təşkili şöbəsinin baş mütəxəssisi Zümrüd Ağayeva UEFA-dan növbəti dəfə təyinat alıb. AZƏRTAC milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, o, UEFA Gənclər Liqasında Serbiyada "Srvena Zvezda" və İsveçrənin "Yanq Boyz" komandası arasında keçiriləcək oyunun UEFA nümayəndəsi olacaq. Qeyd edək ki, qarşılaşma oktyabrın 4-də Belqradda baş tutacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 7404**
**Sifariş: 2517**
"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Məsul növbətçi:
Günel Abbas